QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 021 (6221) 4 fevral 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# İlham Əliyev: "Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik"

Bax 2



*Prezident İlham Əliyev İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib*

## XİN: Azərbaycan ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur

Bax 4



Qarabağdakı bütün abidələr Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Azərbaycan multikultural ölkədir və ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur. SİA-nın məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin...

## Fransanın "Atlantico" portalı: Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir



Fransanın "Atlantico" portalında "Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir" adlı məqalə dərc olunub. Məqalədə deyilir ki, Birinci Qarabağ müharibəsi zamanı bölgədəki çoxsaylı şəhər və kəndlər...

Bax 6

## Rusiya Azərbaycanla aviaəlaqəni bərpa edir



Rusiya Azərbaycanla aviaəlaqəni bərpa edir. SİA-nın məlumatına görə, bu barədə Rusiyanın baş naziri müvafiq qərar imzalayıb. Qeyd olunur ki, ölkələr arasında...

Bax 8

## Ermənistanda əhali kütləvi şəkildə ölkəni tərk edir



Ermənistan əhalisi kütləvi şəkildə ölkəni tərk edir. Rusiya ilə sərhədlərin açılması bu axını daha da sürətləndirib. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, təkcə cari ilin yanvarında 10 minə yaxın...

Bax 7

## Sosial-iqtisadi inkişaf Strategiyasının hazırlanması üçün komissiya yaradılıb



Fevralın 3-də Baş nazir Əli Əsədov "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasının təmin edilməsi barədə...

Bax 3

**Rəzil qadın...**



Bax 14

**Əli Kərimlinin "kadrları" indi onun özünü söyürlər**



Bax 13

**Buffon 1100-cü oyununa çıxdı**



Bax 16

# İlham Əliyev: “Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik”

## *Prezident İlham Əliyev İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib*



### *Rəsmi xronika*

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

* * *

**Prezident İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

* * *

**Prezident İlham Əliyev Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin təşkili haqqında Sərəncam imzalayıb.**

* * *

**Prezident İlham Əliyev Timuçin İlyas oğlu Əfəndiyevin Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam verib.**

## *İlham Əliyev: “Tariximizdə yaşanan çətin vaxtlarda italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq”*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüş iştirakçılarını salamladı.***

Prezident İlham Əliyev: Sabahınız xeyir.

Nümayəndə heyətinin üzvləri: Sabahınız xeyir, cənab Prezident.

Prezident İlham Əliyev: Sizi görməyə çox şadam.

“Maire Tecnimont Group”un sədri Fabrizio Di Amato dedi:

-Sabahınız xeyir, cənab Prezident. Bu səhər bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. 2018-ci ildəki açılış mərasimindən sonra biz yenidən Azərbaycana səfərə gəlmişik. Bu gün səfirimiz və “Maire Tecnimont” şirkətinin heyəti ilə Bakıda olmağımızdan şərəf duyuruq. 2020-ci ildə Dağlıq Qarabağdakı gərgin dövrü geridə qoymağınız münasibətilə Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycana çox yaxınıq və həmin mühüm vaxt bütün italyanların diqqəti də burada idi. Bildiyiniz kimi, biz 7 ildən artıqdır ki, Azərbaycanda fəaliyyət göstəririk. Biz ölkənizin sənayeləşdirilməsi işinə töhfəmizi veririk. Bu gün burada olmaqdan fərəh hissi duyuruq. Çünki biz artıq yeni layihələrə cəlb olunmuşuq. Şəxsən özüm və “Maire Tecnimont” şirkətinin bütün heyəti adından Sizi əmin etmək istəyirəm ki, biz ölkənizlə əlaqələri genişləndirmək və sənayenin inkişafına töhfə vermək əzmindəyik.

Bildiyiniz kimi, hazırda ölkədə bizim 200 nəfərə yaxın heyətimiz çalışır. Biz Azərbaycanı doğma ölkə hesab edirik və işçi qüvvəsinin 72 faizini azərbaycanlılar təşkil edir. İlk vaxtlarda bizim heyət tamamilə italyanlardan ibarət idi, lakin tədricən heyətdə yerli əməkdaşların sayı artırıldı. Bu, daha bir vacib nailiyyətimizdir.

Daha bir mövzu bizim yerli universitet tələbələri və ümumiyyətlə gənclərlə əməkdaşlığımıza aiddir. Bizim buradakı heyətimiz bu gün tələbələrlə əməkdaşlığa xüsusi önəm verir. Bu, bizim ümumi yanaşmamızdır. Ancaq ölkənizdə bu yanaşmanın inkişafı üçün yaxşı imkanlar mövcuddur. Digər bir məsələ sənaye zəncirinin yerli məzmunu ilə bağlıdır. Biz təchizat zəncirimizdə getdikcə daha çox Azərbaycan şirkətləri ilə əməkdaşlıq edirik. Sonuncu layihədə bizim Azərbaycanda sərmayə baxımından iştirakımız 400 milyon avrodan artıq olmuşdur. Bu da daha bir vacib məsələdir. Bildiyiniz kimi, biz İtaliyanı xaricdə təbliğ edirik və Azərbaycanla bizim çox möhkəm münasibətlərimiz var. Sizinlə bərabər biz bu əməkdaşlığı davam etdirmək və ölkənizdə uzunmüddətli fəaliyyət sahəmizi genişləndirmək arzusundayıq. Bir daha qeyd etmək istəyirəm ki, biz Azərbaycanı doğma ölkə hesab edirik. Bu, işlədiyimiz hər bir ölkədə bizim prinsipimizdir.

Prezident İlham Əliyev:

-Çox sağ olun. Xoş sözlərinizə görə, əvvəla Azərbaycanın keçən il ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrikinizə görə təşəkkür edirəm. Biz xalqımız, ölkəmiz üçün çox çətinliklər yaradan bu əsas məsələni həll etdikdən sonra, - bu məsələ həm də dünyada ən böyük haqsızlıqlardan biri idi, - Azərbaycanın inkişafı daha da sürətli olacaq. Buna baxmayaraq, hətta işğal illəri ərzində Azərbaycan uğurla inkişaf etmişdir, sənayeni və müasir texnologiyaları inkişaf etdirmişdir. Yeri gəlmişkən, bizim sizin şirkətinizlə sıx əməkdaşlığımız və Azərbaycanda icra etdiyiniz layihələr onu göstərir ki, ölkənin iqtisadi və sənaye inkişafı çox yaxşı təsir bağışlamışdır.

İndi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək. Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq. Əlbəttə, sizin Azərbaycandakı fəaliyyətiniz və həyata keçirdiyiniz layihələr bizə sənayemizin qeyri-enerji sektorunu artırmağa kömək edir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, pandemiyaya və Azərbaycanda keçən il olan iqtisadi azalmaya baxmayaraq, - o, 4,3 faiz olmuşdur, - bizim qeyri-enerji sənayemiz 12,5 faiz artmışdır. Bu, sənayeləşmə proqramının əsl nümayişidir və “Maire Tecnimont” kimi aparıcı beynəlxalq şirkətlə əməkdaşlıq, əlbəttə ki, bizə kömək etdi və gələcəkdə də kömək edəcək.

Mən sizin Azərbaycandakı fəaliyyətinizlə bağlı məlumata baxırdım və əlbəttə ki, Sumqayıtdakı açılış mərasimini də xatırlayıram. O zaman bu mühüm əlamətdar hadisədə Prezident cənab Mattarella mənimlə birlikdə iştirak edirdi. Ümumiyyətlə, sizin şirkətiniz Azərbaycanda dəyəri 1,6 milyard avrodan çox olan layihələrə cəlb olunub və hesab edirəm ki, bu belə də davam edəcək. Çünki siz artıq bizim ölkəyə sadiq olduğunuzu nümayiş etdirmisiniz. Sizin fəaliyyətinizdə yer alan yerli vətəndaşların sayı ilə bağlı dedikləriniz sizin sadiqliyinizi və Azərbaycanda uzunmüddətli strategiyanızı nümayiş etdirir. Çünki burada uzun müddət ərzində fəaliyyət göstərməyi planlaşdırmasaydınız bunu etməzdiniz. Başlanğıcda yalnız italyanlar işləyirdi, indi yerli kadrların sayı 70 faizdən çoxdur. Beləliklə, siz təlimlərə töhfə vermisiniz və bu da çox önəmlidir.

***Ardı Səh. 3***

# İlham Əliyev: “Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik”

*Prezident İlham Əliyev İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib*



## *İlham Əliyev: “Azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün bizə yaxşı tərəfdaşlar lazım olacaq”*

Əvvəli-Səh-2

İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir.

Beləliklə, biz ümid edirik ki, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlar. Sizə deyə bilərəm ki, artıq bərpa işləri və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çünki mən artıq dəfələrlə çıxışlarımda demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın həqiqətən kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir.

Planlarımız haqqında sizə bir məsələni də qeyd etmək istəyirəm. Əminəm ki, siz bu barədə bilirsiniz. Lakin bu istiqamətdə işlər gedir. Bu məsələ Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlıdır. Biz artıq yer ayırmışıq. Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb. Bu məsələ, həmçinin hökumət səviyyəsində razılaşdırılmışdır. Ümid edirəm ki, gərgin çalışsaq bu il biz bu işə başlaya bilərik. Çünki bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda, biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə bilək deyə bizim iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu, həmçinin ölkələrimiz arasında sıx dostluq əlaqələrinin güclənməsinə də kömək edəcək. Sizə uğurlar arzulayıram və sizi Bakıda görməyə şadam. Ümid edirəm ki, növbəti dəfə biz videokonfrans vasitəsilə yox, üzbəüz görüşəcəyik.

Baş icraçı direktor Pierroberto Folgiero:

-Sağ olun, cənab Prezident. Əvvəlcə, universitetlə əməkdaşlıq əsasında inkişaf məsələlərində Sizə yardımçı olmaqdan olduqca məmnunam, çünki “Maire Tecnimont” şirkətinə gəldikdə, ilk olaraq texnologiyalara əsaslanan şirkət haqqında düşünürsən. Bizim yeni texnologiyalara böyük inamımız var və bu səbəbdən töhfə verməkdən çox məmnun olardıq. Xüsusən də bilirəm ki, SOCAR ilə kimya sahəsində əməkdaşlıq aparılır. Bu işbirliyi universitetin fəaliyyətə başlamasını nəzərdə tutacaq. Bu isə kimya sahəsində malik olduğumuz ən mühüm dəyərlərdən biridir.

İcazə verin, əvvəlcə, bildirim ki, biz öndə gedirik və istərdik, “yaşıl kimya” adlandırdığımız sahəni inkişaf etdirək. Fikrimizcə, dünyanın bu bölgəsində Azərbaycanın üzərinə mühüm rol düşür. Həmin ideyalarla bölüşməkdən çox şad olardıq. Bu, birinci məsələdir.

İkinci məsələyə gəlincə, biz əməkdaşlığı, məsələn, enerji istehsalı sahəsində də genişləndirməkdə çox maraqlıyıq. Yanaşmamız uzunmüddətlidir və ən əsası, insan kapitalına söykənir, gənclərin işə cəlb edilməsini nəzərdə tutur. Sizə bir faktı da söyləyim. Biz dünya miqyasında regional müşavirələr keçiririk və onlardan birində “Tecnimont” şirkətində çalışan gənc azərbaycanlı həmkarımız iştirak edib və dünya ictimaiyyəti qarşısında əməkdaşlığın faydası, mədəniyyətlərarası işbirliyi barədə çıxış edib. Onun çıxışı bütün insanlarımızda böyük hisslər doğurdu. Hər hansı böyük uğur hər ikimizə məmnunluq hissləri yaradır. İcazə verin, bildirim ki, yeni texnologiyaları inkişaf etdirmək və sizin çevikliyinizdən, sahibkarlıq imkanlarından istifadə etməkdən çox şad olardıq. Bu keyfiyyətlər İtaliyanın iş adamlarının da yanaşmasının əsasında dayanır və müəyyən dərəcədə “yaşıl kimya” sahəsində qabaqcıl mövqeyi şərtləndirir.

Prezident İlham Əliyev:

-Çox sağ olun. Sizin gələcək tərəfdaşlığımızla bağlı ideya və fikirlərinizi tam dəstəkləyirəm. Əlbəttə, Turin Universitetinin ümumi işlərimizdə iştirakı çox alqışlanandı. Həmçinin siz “yaşıl kimya”nı qeyd etdiniz. Bildiyimə görə, bu, texnoloji inkişaf baxımından yenilikdir. Bu, həmçinin bizim gündəliyimizə tam uyğundur, çünki əvvəlki illərdə biz çox işlər görməli idik ki, həyat tərzini yaxşılaşdıraq və xüsusən də bütün çirklənmiş sahələri təmizləyək. Xüsusən də burada, Bakıda və Abşeron yarımadasında. Həmin ərazilər yüz ildən artıqdır ki, çirkləndirilib. Biz böyük sərmayələr yatırdıq, torpaqlarda çoxlu rekultivasiya işləri apardıq. Ətraf mühitin qorunmasına aid bir çox məsələlərlə məşğul olduq. Bu, davam edəcək. Buna görə, “yaşıl enerji” konsepsiyası, əsasən, Azərbaycan üçün irəliyə aparan yoldur. Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər “yaşıl enerji zonası”nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda, biz orada “ağıllı şəhər”, hətta “ağıllı kənd” adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu, həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün yaxşı nümunə olacaq.

Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik. Çünki ölkə müasirləşməlidir, intellektual baxımdan bacarıqlı olmalıdır və sənaye sahəsində güclənməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim bu cür güclü tərəfdaşa ehtiyacımız var.

Mən bir daha, xüsusi olaraq, qeydlərinizdən birinə istinad etmək istəyirəm. Bu, şirkətinizdə yerli işçilərin olması ilə bağlıdır. Bu, dostluğun əsl rəmzidir və dostluğu nümayiş etdirir. Mən buna görə sizə təşəkkürümü bildirmək istəyirəm və əminliyimi ifadə edirəm ki, biz şirkətinizlə və tərəfdaşlarınızla birgə işimizi davam edəcəyik. Əminəm ki, buradakı imkanlar, İtaliyaya olan səmimi münasibətlər barədə ölkənizin iş adamları nə qədər çox bilərsə, bir o qədər çox İtaliya şirkətləri bura gələcək. Biz bunu istəyirik.

# "Yəhudilər ölkəmizin dəyərli vətəndaşlarıdır"

*Prezident İlham Əliyev ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, Mark Şnayer ölkəmizdə digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Müsəlman ölkələri arasında ən böyük yəhudi icmasının Azərbaycanda yaşadığını vurğulayan Mark Şnayer Prezident İlham Əliyevin digər icmalarla yanaşı, yəhudilərə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı yəhudilərin ölkəmizin dəyərli vətəndaşları olduqlarını qeyd etdi, digər dini və etnik icmaların nümayəndələri kimi onların da Azərbaycanda əsrlərboyu mehribanlıq, qardaşlıq və dostluq şəraitində yaşadıqlarını bildirdi. Söhbət zamanı mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanla ABŞ əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# XİN: Azərbaycan ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur



***Qarabağdakı bütün abidələr Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Azərbaycan multikultural ölkədir və ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur. SİA-nın məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin birgə bəyanatına dair şərhində deyilib.***

Avropa Parlamentinin (AP) üzvləri, Avropa İttifaqı (Aİ) və Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin sədri, Marina Kalyurand, AP-nin Ermənistan üzrə daimi məruzəçisi Andrey Kovaçev və AP-nin Azərbaycan üzrə daimi məruzəçisi Yelena Zovko tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların davam etdirilməsinə ehtiyacın olması" barədə birgə bəyanatın verilməsi AP üzvlərinin, ümumiyyətlə bölgədə sülh və əminamanlığın beynəlxalq hüququn təməl prinsipləri əsasında təmin olunması mövqeyindən çıxış etmələrinə rəğmən bölgədə mövcud olan cari vəziyyətdən hələ də tam məlumatlı olmadıqlarını göstərir.

İlk növbədə AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, AP-nin öz qətnamələrində illərdir ki, beynəlxalq hüquq prinsipləri, həmçinin BMT TŞ qətnamələri əsasında həllinə çağırdığı Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub, Azərbaycan ərazi bütövlüyünü təmin edib və BMT TŞ-nin 1993-cü il tarixli müvafiq qətnamələrinin həyata keçirilməsini təkbaşına təmin edib. Başqa sözlə desək, AP üzvlərinin istinad etdiyi və dövlətlərarası münasibətlərin təməlini təşkil edən Helsinki Yekun Aktının sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipləri rəhbər tutulub.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatla bölgədə yeni reallıq yaranıb. AP üzvlərinin sözügedən üçtərəfli bəyanatın bölgədə sabitliyin təmin olunmasına gətirdiyini qeyd etməsi təqdirəlayiqdir. Çünki hazırkı mərhələdə bölgədə sülh və təhlükəsizliyin təmin olunması, habelə tərəflər arasında etimadın qurulması üçün, məhz 10 noyabr tarixli üçtərəfli razılaşmanın icrası və bu istiqamətdə müvafiq addımların atılması vacibdir.

Azərbaycan tərəfi, öz növbəsində sözügedən razılaşmanın icrası üçün, o cümlədən humanitar məsələlərin həlli sahəsində bütün lazımi addımları atır, lakin Ermənistan tərəfinin imza atdığı bu bəyanata sadiqliyi sual doğurur. Yaxşı olardı ki, AP üzvləri Ermənistan tərəfinə hərbi əməliyyatların dayandırılması ilə bağlı birgə bəyanata imza atdıqdan az qala 20 gün sonra nə səbəbdən Azərbaycan ərazilərinə diversant qrupunu göndərdiyi ilə bağlı sual ünvanlayardı. Bəlkə o zaman AP üzvləri haqqında bəhs olunan Ermənistan hərbçilərinin heç də hərbi əsir deyil, atəşkəs elan olunduqdan sonra məqsədyönlü şəkildə Azərbaycan ərazilərinə göndərilmiş terrorçu diversant qrupunun üzvləri olduğunu anlayardı. Ümumiyyətlə, Ermənistanın atəşkəs elan olunduqdan sonra terror aktları törətmək məqsədilə əraziyə hərbi qulluqçularını göndərməsi, bu ölkənin iştirakçısı olduğu Şərq Tərəfdaşlığının təməl prinsiplərinə və ümumilikdə Avropa dəyərlərinə hörmət etmədiyini açıq şəkildə nümayiş etdirir.

Mədəni irs məsələsinə gəldikdə isə, AP üzvlərinə yaxşı bəlli olmalıdır ki, Azərbaycanın onilliklərdir ki, işğal altında qalan ərazilərində Ermənistan tərəfinin apardığı qeyri-qanuni fəaliyyət nəticəsində bütün tarixi, mədəni və dini irs demək olar ki, məhv edilib, sözügedən abidələrin dağıdılması, talan edilməsi, mənşəyinin dəyişdirilməsi ilə bağlı hərbi cinayətlərə bərabər fəaliyyət həyata keçirilib. Bu məsələ Azərbaycan tərəfindən davamlı şəkildə beynəlxalq platformalarda, o cümlədən Avropa İttifaqı institutları ilə təmaslarımız zamanı qaldırılsa da AP üzvlərinin bu günədək bu məsələ ilə bağlı bir dənə də olsun bəyanat verməməsi təəssüf doğurur. AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, Qarabağdakı bütün abidələr Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Azərbaycan multikultural ölkədir və ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur. Ölkəmizin zəngin irsinin mühafizəsi bundan sonra da yüksək səviyyədə təmin ediləcək, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işləri həyata keçiriləcəkdir.

## Sosial-iqtisadi inkişaf Strategiyasının hazırlanması üçün komissiya yaradılıb

Fevralın 3-də Baş nazir Əli Əsədov "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasının təmin edilməsi barədə Sərəncam imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.



Nazirlər Kabinetinin Sərəncamında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın formalaşması, bu sahədə strateji planlaşma və idarəetmənin effektiv təşkili və əlaqələndirilməsi, habelə uyğun siyasət və islahat istiqamətlərinin müəyyən edilməsi məqsədilə qərarlar öz əksini tapıb. Sərəncama əsasən Baş nazirin sədrliyi, müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının iştirakı ilə komissiya yaradılıb. Komissiya "2021?2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsinin hazırlanması və həyata keçirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirəcək.

# Dövlət başçısından məmurlara növbəti XƏBƏRDARLIQ!

*Prezident İlham Əliyev: "Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm"*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak edərək xəstəxanada yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.***



Prezident İlham Əliyev Azərbaycan Televiziyasına verdiyi müsahibədə ilk öncə erməni işğalından azad edilən torpaqlara səfər təəssüratlarını bildirib: "Təəssüratlar, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşı hansı hissləri keçirir, mən də o hissləri keçirirəm. Bəlkə, daha çox. Çünki mən artıq əyani şəkildə o torpaqlarda olmuşam. İndi vaxtaşırı televiziya reportajlarında o dağılmış, viran qoyulmuş ərazilər göstərilir. Amma əlbəttə ki, onu əyani şəkildə görəndə mənzərə tam başqadır. Bu, bir daha onu göstərir ki, hansı bəlaya qarşı biz mübarizə aparmışıq. Bu gün bizim haqlı davamıza kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bunu bilməlidirlər ki, mənfur Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək bütün infrastrukturu dağıdıb", - deyə dövlət başçısı bildirib.

### "Erməni xalqı vaxt keçəcək, bizə minnətdar olacaq"

"Mən Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında, Şuşa şəhərində olmuşam. Ağdam şəhəri tamamilə dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Bir yarıdağılmış məscid qalıb, onu da ermənilər təhqir ediblər. Füzuli şəhərində bir dənə də bina yoxdur. Bir üç-dörd mərtəbəli hərbi hissənin binasıdır. Cəbrayıl şəhərində, şəhərin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda bir neçə ev sadəcə olaraq qalıbdır, özü də yarıdağılmış vəziyyətdə. O evlərdən də onlar polis şöbəsi kimi, deməli hərbi baza kimi istifadə edirdilər. Yol boyunca kəndlərdə bir dənə də salamat bina yoxdur. Kəndlərin bütün binaları dağıdılıb, talan edilib. Bu mənzərə indi bütün dünyaya təqdim edilir və təqdim edilməlidir. Uzun illər Ermənistan rəhbərliyi və onun havadarları bunu gizlədirdilər. Sanki belə bir şey yoxdur. O bölgələrdə olan beynəlxalq təşkilatların nümayəndələri də bunun üstünü örtürdülər. Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. Məhz buna görə biz oraya jurnalistləri dəvət edirik, diplomatik korpusun nümayəndələrini. Daha da böyük sayda dəvət etməliyik ki, hər kəs görsün. Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır.

Mən özümə sual verirdim ki, nə üçün onlar bunu edib və sözün düzü suala cavab tapa bilmirəm, bu günə qədər də. Bir səbəb ondan ibarətdir ki, onlar hesab edirdilər ki, belə olarsa, bütün evlər yerlə-yeksan edilərsə, azərbaycanlılar o torpaqlara qayıtmayacaqlar. Çünki onlar hesab etmirdilər ki, biz o faciədən sonra ayağa dura bilərik, möhkəmlənə bilərik, zəngin təbii ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edib ölkəmizi inkişaf etdirə bilərik, bu torpaqları, əraziləri bərpa edə bilərik. Onlar hesab edirdilər ki, heç vaxt biz oraya qayıtmayacağıq. Bu, birinci səbəb. İkinci səbəb, bəlkə də birinci səbəb onların ürəyində bizə qarşı olan düşmənçilikdir. Biz bunu sovet dövründə bilmirdik, hiss etmirdik. İndi mən o illəri yaxşı xatırlayıram. Azərbaycanda minlərlə erməni yaşayırdı. Bizim onlara münasibətimiz çox müsbət idi. Onlar da özlərini burada cəmiyyətin necə normal üzvləri kimi aparırdılar. Heç bir ədavətdən, düşmənçilikdən söhbət gedə bilmirdi. Bəs necə oldu ki, 92-93-cü illərdə onlar bizə qarşı bu qədər qəddarlıq göstərdilər, Xocalı soyqırımı, digər günahsız insanların öldürülməsi ilə nəticələnən onların hərbi əməliyyatları, dinc əhaliyə qarşı bu qədər qəddarlıq. Deməli, bunların ürəyində bu düşmənçilik toxumları həmişə var idi. Özü də o vaxt axı Azərbaycan, indi bu gün Azərbaycan onların belini qırıb, onların başını əzib, onların ordusunu məhv edib, onların ideologiyasını məhv edib, onların yetişdirdikləri illər boyunca, onilliklər boyunca ideoloji əsaslarını məhv edib, bu gün onlar, əlbəttə ki, aydın məsələdir, onların bizə münasibəti nədir? Bəs o vaxt biz nə pislik etmişdik? Heç bir pislik etməmişdik. Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstlərini güllələbaran etməklə, gərək adamın ürəyində nə qədər nifrət olsun, nə qədər düşmənçilik olsun, özü də kimə? O xalqa ki, sənə burada yer verib. Sən burada yuva salmısan. Sənin üçün yad olan torpağa, Qarabağa köçürülmüsən, Anadoludan, İrandan köçürülmüsən, gəlmisən, sənə burada qucaq açıb Azərbaycan xalqı, çörək verib. Sən bu çox sağ ol əvəzinə, 92-93-cü illərdə bütün binaları dağıdırsan, məscidləri dağıdırsan, təhqir edirsən. Bu kadrlar var internetdə. O hərbi cinayətkar və bu dəfə Qarabağ müharibəsində Qarabağa gəlmiş və siçan kimi oradan qaçmış Koçaryan Ağdam məscidinin önündə dayanıb və Ağdam məscidinin divarının üzərində təhqiramiz ifadələr. Bax budur o. O, bu hisslərlə yaşayıb. Biz onların belini qırdıq, onları məhv etdik".

### "Biz təkcə ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik"

"Bu gün bizim haqlı davamıza kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bunu bilməlidirlər ki, mənfur Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək bütün infrastrukturu dağıdıb". Bu barədə Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

"Mən Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında, Şuşa şəhərində olmuşam. Ağdam şəhəri tamamilə dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Bir yarıdağılmış məscid qalıb, onu da ermənilər təhqir ediblər. Füzuli şəhərində bir dənə də bina yoxdur. Bir üç-dörd mərtəbəli hərbi hissənin binasıdır. Cəbrayıl şəhərində, şəhərin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda bir neçə ev sadəcə olaraq qalıbdır, özü də yarıdağılmış vəziyyətdə. O evlərdən də onlar polis şöbəsi kimi, deməli hərbi baza kimi istifadə edirdilər. Yol boyunca kəndlərdə bir dənə də salamat bina yoxdur. Kəndlərin bütün binaları dağıdılıb, talan edilib", - deyə dövlətimizin başçısı qeyd edib.

Bu mənzərənin indi bütün dünyaya təqdim edildiyini bildirən Prezident İlham Əliyev deyib: "Uzun illər Ermənistan rəhbərliyi və onun havadarları bunu gizlədirdilər. Sanki belə bir şey yoxdur. O bölgələrdə olan beynəlxalq təşkilatların nümayəndələri də bunun üstünü örtürdülər. Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. Məhz buna görə biz oraya jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edirik. Daha da böyük sayda dəvət etməliyik ki, hər kəs görsün. Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır".

### "Biz bütün işləri ardıcıllıqla edirik, eyni zamanda, hər şey planlı şəkildə olmalıdır"

Dövlət başçısı bütün işləri ardıcıllıqla etdiyini bildirib: "İlk növbədə, keçmiş köçkünlər, nə vaxt qayıda bilərlər o torpaqlara. Birinci, minalardan təmizləmə. Bu, böyük bir prosesdir. Ermənilər bizə mina sahələrinin xəritələrini vermirlər. Ona görə indi partlayışlar da tez-tez olur. Biz indi Minatəmizləmə Agentliyini yenidən formalaşdırırıq və onun fəaliyyəti daha səmərəli olacaq. Ancaq bu, müəyyən vaxt aparacaq. Mina təmizləməklə əlaqədar işlər əlbəttə ki, başa çatmalıdır",-deyə dövlət başçısı qeyd edib ki, ondan sonra ziyan qiymətləndirilməlidir: "Əgər biz ziyanın qiymətləndirməsini etməsək, sabah təzminat davasında da uğur qazana bilmərik. Ona görə də, ilk növbədə, yerli qurumlar dağıdılmış bütün evlərin pasportlaşdırılmasını aparmalıdır. Video, foto çəkilişlər, dron çəkilişləri, protokollaşma aparmalıdır. Hər bir binanın, hər kənddə yerləşən binanın, hər şəhərdə yerləşən binanın öz pasportu olmalıdır. Bu məlumatı biz verəcəyik cəlb edilmiş beynəlxalq şirkətlərə, onlar özləri tədqiqat aparacaqlar, özləri monitorinq missiyaları həyata keçirəcəklər və onlar bizə Ermənistana qarşı açılacaq təzminat davasında kömək göstərəcəklər. Yəni, bu ardıcıllıq budur".

Ardı Səh. 6

# Dövlət başçısından məmurlara növbəti XƏBƏRDARLIQ!

*Prezident İlham Əliyev: "Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm"*

Əvvəli-Səh-5

Prezident İlham Əliyev bu işlərdən sonra infrastruktur layihələrinin icra edilməli olduğunu qeyd edib: "Axı infrastruktur olmasa, orada insan necə yaşayacaq? Su yox, işıq yox, yol yoxdursa necə yaşaya bilər? Ondan sonra evlər tikilməlidir. Mən göstəriş vermişəm, artıq bizim qurumlar işləyirlər, bütün şəhərlərin baş planları hazırlanır, özü də elə-belə yox - "ağıllı şəhər" konsepsiyası, "ağıllı kənd" konsepsiyası. Bu, zaman tələb edir. Eyni zamanda, hər şey planlı şəkildə olmalıdır". Dövlət başçısı müsahibə zamanı məmurlara lüzumsuz təkliflərinə görə sərt tənqid edib. Bildirib ki, hər kəs öz yerini bilməli, özbaşınalıq edə bilməz: "Yoxsa biri oradan durub deyəcək ki, mən burada bunu tikəcəyəm, biri oradan duracaq ki, mən bunu. Kimsən sən? Sən get öz işinlə məşğul ol. Yenə də deyirəm, ucuz populyarlıq dalınca qaçanların axırı pis olur, bu, birincisi. İkincisi, qayda-qanun var ölkədə. Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq. Təkcə bu işlərlə, əlbəttə ki, məsələ bitməyəcək. Sosial obyektlər də tikilməlidir. Evlərin tikintisi ilə paralel olaraq sosial obyektlər - xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları, idman qurğuları. Yoxsa əgər biz indi gedib haradasa, necə deyərlər, məktəb tiksək, ya xəstəxana tiksək, amma kim oraya gedəcək. Orada adam yoxdur".

### "...Yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək"

"Bir də mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm. Ona görə hərə otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin". Bu sözləri Prezident İlham Əliyev fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışından sonra Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

Ölkə başçısı qeyd edib ki, Şuşanın ərazisinin ölçüsü 300 hektardır: "Mən qoymamışam ki, bir dənə daş daş üstə qoyulsun. Çünki birinci təhlil aparmalıyıq. Ondan sonra o tarixi binaları bərpa etməliyik, necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz indi cəlb etmişik. Misal üçün, Xurşidbanu Natəvanın sarayı, necə bərpa edilməlidir? Çünki onun bir divarı var, qalan divarlar uçub. Hansı formada o bərpa edilməlidir? Onu yenidənmi eyni stildə qalan o uçan hissəsi tikilməlidir, yaxud da ki, elə formada tikilməlidir ki, oraya gələn görsün ki, bax bu, buradan dağılıb, oradan sökülüb. Bu suala mənim cavabım yoxdur, çünki mən mütəxəssis deyiləm və indi müxtəlif şirkətlər, yerli, xarici şirkətlər məşğul olurlar artıq bu işlərlə. Şuşada biz ancaq və ancaq tarixi binaları bərpa etməliyik, mən belə hesab edirəm. Ondan sonra "xruşşovkalar"la bağlı, indi qabaqlamaq istəmirəm, mənim fikrim var ki, onların bir çoxu oradan yığışdırılmalıdır. Onların yerində yəqin ki, müasir 4-5 mərtəbəli yaşayış binaları tikilməlidir, ancaq bunu yenə də mən sadəcə olaraq öz fikirlərimi bölüşürəm, amma necə olacaq, onu mütəxəssislər deyəcək, memarlar, tarixçilər, şuşalılar özləri, onlar necə bu şəhəri görmək istəyirlər, çünki bu, onların şəhəridir. Yoxsa bütün bunlar, işlər, bu işlər kənarda qala-qala biri durur ki, mən filial açıram, biri deyir ki, mən zastava açıram, biri deyir ki, mən fövqəladə hallar açıram. Vallah, adam söz tapmır. Mən söz tapmışam, onlara elə söz demişəm ki, onlar o sözü unutmayacaqlar. Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa işləri ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır. Olmasa bax bilin, yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək".

### "Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır"

"Mən indi müvəqqəti idarəetmə strukturu yaratmışam. Nəyə görə? Çünki mən görürəm, bilirəm, artıq gözlər tikilib oraya",-deyən dövlət başçısı bildirib ki, artıq çox məmurlar o torpaqlara göz tikib: "İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində öz işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı şəkildə və əsaslı şəkildədir. Mən əminəm ki, buna biz nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin".

"Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar"

"Şuşa şəhəri mənim tərəfimdən ölkəmizin mədəniyyət paytaxtı elan edilib. Bunu hər kəs bilir və bu qərar yüksək qiymətləndirilib. Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar",-deyən Prezident İlham Əliyev məmurlara lüzumsuz təkliflərinə görə sərt reaksiya bildirib: "Şuşa demək olar ki, dağılıb, bütün binalar dağılıb. Bir keçmiş raykom binası qalıb, harada ki, mənfur xunta özü üçün yuva salmışdır, bir də xunta başçısının villası və bir-iki də cinayətkar, rüşvətxor erməni məmurunun villası. Orada başqa bina yoxdur. Bir də "xruşşovkalar", hansılar ki, çoxdan öz ömrünü bitirib, orada da 2 min erməni yaşayırdı. İndi Mərkəzi Bank insanlara xidmət göstərib ki, orada filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin və bunun insanlara hansı xeyri dəyəcək? Heç bir. Təkcə bu, deyil. Digər qurumlar da, indi mənə müraciət etmişlər. Onların hər halda ağlı çatıb mənə müraciət etməyə və mən onlara dedim ki, gedin oturun yerinizdə", - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident onların adlarını sadalayaraq deyib: "Azəravtoyol". Onun rəhbəri mənə müraciət edib ki, icazə verin, Şuşada "Azəravtoyol" qurumunun regional mərkəzini açaq. Nə üçün? Yol çəkmək lazımdır, get, yol çək. Heç kim öz hesabına yol çəkmir, dövlət büdcə ayırır. Şuşada "Azəravtoyol"un regional mərkəzinin nə işi var? İstəyir ki, özü üçün şərait yaratsın, getsin o torpağı zəbt etsin, özü üçün iqamətgah tikdirsin, onu hasara alsın, bir qarovulçu qoysun və bəli, oraya gedəndə otursun orada necə deyərlər, təbiəti seyr etsin. AZAL. Onun da rəhbəri mənə müraciət etmişdir ki, AZAL-ın hansısa qurumunu Şuşada yaratmaq istəyirlər. Bu, prinsipcə absurddur. Ona da lazımi sözləri demişəm ki, get otur yerində. Ondan sonra Dövlət Gömrük Komitəsi Şuşada Qarabağ Regional Mərkəzinin yaradılması ilə bağlı müraciət edib. Şuşada sərhəd var ki, gömrüyün regional mərkəzi olsun?

Bilirsiniz, bu adamların beyninə belə ziyanlı fikirlər gəlir və onlar da bunu tələffüz edirlər. Siyahı davam edir hələ. Fövqəladə Hallar Nazirliyi. Nazir mənə müraciət edib ki, icazə verin, orada biz Fövqəladə Hallar Nazirliyinin Qarabağ regional mərkəzini yaradaq, Şuşa şəhərində. Yenə də eyni məqsədlə, yenə də torpaq, hələ ki, orada indi heç kim yoxdur, yenə də hasar, yenə də nə bilim tikanlı məftil, iqamətgah. Dövlət Sərhəd Xidməti. Bu təklifi indi desəm yəqin ki, mənim kimi Azərbaycan xalqı da güləcək. Xidmətin rəisi mənə zəng edib deyir ki, icazə verin, biz sərhəd xidmətinin Şuşa zastavasını da yaradaq. Dedim ki, a kişi Şuşada sərhəd var? Deyin də mənə Şuşada sərhəd var, yoxsa yox? Deyir yoxdur. Deyirəm bəs, nə zastava yaradırsan? İndi bizim o boyda sərhədimiz yaranıb, ta şimaldan cənuba qədər, Kəlbəcərdən Cəbrayıla qədər, Ermənistanla sərhəd. Cəbrayıl rayonunda İranla sərhəd, get orada yarat da. Şuşada nə işin var sənin?! Yenə də gəlim, oturum, yerləşim, iqamətgah qurum, hamısı da dövlət hesabına, hamısı dövlət hesabına. Burada mənim bir rezidensiyam olsun. Mən bəzən bu şeyləri demirəm vətəndaşlara ki, onları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma mənim də artıq səbrim tükənir və deyirəm ki, vətəndaşlar da bilsinlər, bu məmurlar da bilsinlər. Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar".

**RƏFİQƏ KAMALQIZI**

# Fransanın "Atlantico" portalı: Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir

***Fransanın "Atlantico" portalında "Qarabağın kabus şəhəri Ağdam dirçəlişini gözləyir" adlı məqalə dərc olunub. Məqalədə deyilir ki, Birinci Qarabağ müharibəsi zamanı bölgədəki çoxsaylı şəhər və kəndlər "böyük Ermənistan" xəyallarını reallaşdırmağa cəhd edən ermənilərin nəzarəti altına keçdi. Müharibə nəticəsində 800 min azərbaycanlı doğma yurdundan didərgin düşərək məcburi köçkünə çevrildi.***




Ermənilər tərəfindən işğal ediləndən sonra Ağdamda müharibədən əvvəlki həyat yoxa çıxdı və şəhər kabus məkana çevrildi. Ağdam sakini olan Tərlan İsgəndərova müharibə zamanı başlarına gələn hadisələrdən danışır. O, həmin vaxt 26 yaşlı ərinin həlak olduğunu, özünün hamilə vəziyyətdə evindən qaçmağa məcbur qaldığını bildirir. "Həyat yoldaşımdan qalan yeganə yadigarım qızımdır. Bütün əşyalarımızı qoyub çıxmalı olduq", - deyən Tərlan Xocalıda törədilmiş qırğının onların şəhərində də təkrarlanacağından ehtiyat etdiklərini deyir. Köçkünlüyün ilk illərini çadırda keçirən, sonradan dövlətin bağışladığı gözəl mənzildə yaşayan Tərlan Ağdamı tərk edərkən hətta ərinin cəsədini tapa bilmədiyi, bu gün onun heç qəbri belə olmadığını söyləyir.

Jurnalist ermənilərin Ağdamda törətdikləri dağıntılardan bəhs edir. O yazır ki, şəhər talan edilərək dağıdılıb. Bir vaxtlar teatrı, mehmanxanaları, müxtəlif müəssisələri ilə Qarabağın əsas mərkəzlərindən olan Ağdamdan heç nə qalmayıb. Dünyada yeganə olan Çörək muzeyi, məşhur Muğam Mərkəzi yerlə-yeksan edilib. Yalnız ermənilərin nəzarət məntəqəsi kimi istifadə etdikləri bir məscid qalıb. Ermənilər hər şeyi, hətta evlərin daşlarını belə söküb aparıblar.

Müəllif onu da diqqətə çatdırır ki, İkinci Qarabağ müharibəsindən sonra ermənilər əraziləri tərk edərkən bütün evləri yandırıb, hər tərəfi minalayıblar. O qeyd edir ki, 2020-ci il noyabrın 20-də Azərbaycana qaytarılmış və geniş xarabalıqdan ibarət olan Ağdamda bu gün minatəmizləyənlər fəaliyyət göstərirlər. Əhalinin doğma evlərinə qayıtmaları üçün zamana ehtiyac var. Azərbaycan hökuməti şəhəri əvvəlki formada yenidən bərpa edəcəyini bildirib. Jurnalist vurğulayır ki, bu gün bütün məcburi köçkünlərin yeganə bir arzusu var, o da doğma torpaqlarına qayıtmaqdır.

# Ermənistanda əhali kütləvi şəkildə ölkəni tərk edir




Ermənistan əhalisi kütləvi şəkildə ölkəni tərk edir. Rusiya ilə sərhədlərin açılması bu axını daha da sürətləndirib. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, təkcə cari ilin yanvarında 10 minə yaxın erməni Rusiya, Ukrayna və digər ölkələrə üz tutub. Ukraynaya getmək istəyənlər müəyyən problemlərlə üzləşiblər. Onların bəziləri ya geri qayıdıb, ya da başqa ölkələrə üz tutublar.

Mətbuatın yazdığına görə, ermənilər ən çox Rusiyaya gedirlər. Ötən il 30 min 500 Ermənistan vətəndaşına Rusiya pasportu verilib. Ümumiyyətlə, son 3 ildə 82 min Ermənistan vətəndaşı Rusiya pasportu alıb.Analitiklər hesab edirlər ki, ermənilərin başqa ölkələrə köç etməsi əsasən Ermənistandakı acınacaqlı vəziyyət ilə əlaqədardır. Hesablamalara görə, ölkədə təbii artım da xeyli azalıb. Əgər belə davam edərsə, Ermənistanda demoqrafik vəziyyət çox acınacaqlı olacaq və ölkədə təxminən bir milyona yaxın əhali qalacaq.

# Abidələrin bərpasına nə vaxt baxılacaq?



Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və komendantlıqların nəzdində aidiyyəti dövlət orqanlarının (qurumlarının), o cümlədən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılıb. Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildiriblər.

Qeyd olunub ki, Mədəniyyət Nazirliyini təmsil edən nümayəndələr abidələrin ilkin inventarlaşdırılması məqsədilə monitorinqlərə başlamış və abidələrin əksəriyyətinin dağıdıldığı, məhv edildiyi, mənimsənildiyi və vandalizmə məruz qaldığı müəyyən edilib. "Monitorinqlər yekunlaşdıqdan sonra işğaldan azad olunmuş ərazilərdə neçə heykələ ziyan dəydiyi müəyyənləşəcək. Monitorinqlərin nəticəsi təhlil olunduqdan sonra işğaldan azad olunmuş ərazilərdə yerləşən abidələrin bərpası məsələsinə baxılacaq".

# YAP Səbail rayon təşkilatında Gənclər Günü qeyd olunub

YAP Səbail rayon təşkilatında 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı onlayn videokonfrans keçirilib. Gənc fəallarının iştirak etdiyi videokonfransda YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev, YAP Səbail rayon Gənclər Birliyinin sədri Riyad Rüstəmli, YAP Səbail rayon Gənclər Birliyinin sədr müavini Fuad Heydərli, Vətən müharibəsinin iştirakçısı, müzəffər Azərbaycan Ordusunun qalib əsgəri İmran Məmmədov, YAP Səbail rayon Gənclər Birliyi Şurasının üzvü Aygün Kazımova, YAP Səbail rayon təşkilatı Könüllülər Birliyinin rəhbəri Rəşad İmanov, rayon partiya təşkilatının stajeri Aytac Məhərrəmli, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbə-rektoru Cavidan Adilzadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Sosial və humanitar məsələlər üzrə prorektorunun köməkçisi Cavid Hüseynov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının YAP GB sədri Aytəkin Hacıyeva, Qərb Kaspi Universitetinin YAP GB və Tələbə Gənclər Təşkilatının sədri Xalid Mirzəyev və YAP Səbail rayon təşkilatı Könüllülər Birliyinin üzvləri Taleh Mansurov, Xatun Kərimova və İlahə Məmmədova Vətən müharibəsində qalib Azərbaycanın müasir gəncliyi, Azərbaycanda dövlət gənclər siyasəti, 1996-cı ildən etibarən keçirilən Azərbaycan Gənclərinin Forumları, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın uğurlu icrası, YAP Gənclər Birliyinin görülən işlərdə xüsusi rolu və töhfələri mövzularında çıxışlar etdilər.





Tədbirdə Vətən müharibəsinin bütün Şəhidlərinin əziz xatirəsi böyük ehtiramla yad olundu, qazilərimizə şəfa arzulandı və Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadçı Vətənpərvərlər Təşkilatının" sədri, gənc muğam ifaçısı Yusif Cəfərbəyli Şəhid Xudayar Yusifzadənin ifasında məşhurlaşan və "Xudayar təsnifi" kimi tanınan "Vətən yaxşıdır" mahnısını ifa etdi. Videokonfransda 2020-ci il ərzində rayon partiya təşkilatının ictimai-siyasi həyatında fəal iştirak edən gənclər YAP Səbail rayon təşkilatının Fəxri Fərmanları və Sertifikatları ilə təltif olunublar.

YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan gənclərinə tarixi və dəyərli hədiyyəsi olan "2 Fevral - Azərbaycan Gəncləri Günü" münasibətilə bütün gəncləri səmimi qəlbdən təbrik etdi, onlara möhkəm cansağlığı, təhsil sahəsində, şəxsi həyatlarında, ictimai-siyasi fəaliyyətlərində uğurlar arzuladı. Gənclik sözünün gözəllik, yenilik, inkişaf, tərəqqi, yaradıcılıq, interaktivlik, mütərəqqi dəyişikliklərlə xarakterizə olunduğunu vurğulayan Ş.Hacıyev bütün gənclərə insan həyatının ən gözəl və qibtəolunacaq dövründə həm özləri, ailələri, həm də Vətənimiz, dövlətimiz üçün faydalı olmağı, potensiallarını, bilik və bacarıqlarını ölkəmizin tərəqqisi və inkişafı naminə uğurla reallaşdırmağı tövsiyə edib.

Ş.Hacıyev "2 Fevral - Azərbaycan Gəncləri Günü"nün tarixi əhəmiyyəti, Ulu Öndər Heydər Əliyevin və Onun layiqli siyasi davamçısı Prezident İlham Əliyevin Azərbaycan gənclərinə göstərdiyi yüksək diqqət və qayğı, gənclərə olan etimadı və inamı haqqında danışaraq qeyd etdi ki, Azərbaycanda gənclər siyasəti dövlətin siyasi prioritetləri sırasına daxil edilmişdir və ölkəmizdə sağlam düşüncəli vətənpərvər gəncliyin formalaşması və təkmilləşdirilməsi istiqamətində gözəl nəticələr əldə olunduğunu deyib: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən eyni həssaslıq və diqqətlə davam etdirilir, Azərbaycan gənclərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir, ölkəmizdə gənclərin yüksəkixtisaslı təhsil alması, özünüinkişafı və potensiallarını reallaşdırmaları üçün hər cür şərait yaradılır. Gənclərlə bağlı dövlət proqramları və konsepsiyaları, o cümlədən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın uğurlu icrası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun və çoxsaylı gənclər təşkilatlarının təqdirəlayiq fəaliyyəti nəticəsində Azərbaycanda müstəqillik illərində yüksək vətənpərvərliyi, dövlətimizə, milli-mənəvi dəyərlərimizə, tarixi köklərimizə bağlılığı ilə seçilən müasir və nümunəvi gənclər formalaşmışdır. Vətən müharibəsində müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında məhz bu gənclər öz şücaətləri, milli ruhları, qəhrəmanlığı və fədakarlığı ilə Azərbaycanın yeni, şanlı tarixini yazdılar. Biz gənclərimizlə, igid, yenilməz, qalib Azərbaycan Ordusu ilə fəxr edirik".

YAP-nın sıralarında cəmləşən vətənpərvər Azərbaycan gənclərinin cəmiyyət həyatının bütün sahələrində önəmli rolu, mövqeləri və töhfələrini xüsusi qeyd edən Ş.Hacıyev 2020-ci ildə həm pandemiya ilə mübarizədə, həm də Vətən müharibəsi günlərində YAP gənclərinin ön və arxa cəbhədəki fəaliyyətini yüksək qiymətləndirib. Qəhrəman əsgərlərimiz başda olmaqla bütün Azərbaycan gənclərini bayram münasibətilə bir daha təbrik edən Ş.Hacıyev gənclərimizə dövlət müstəqilliyimizi və hər qarış Vətən torpağını göz bəbəyi kimi qorumağı, ölkəmizin ildən-ilə daha da güclənməsi və inkişafı uğrunda yorulmadan çalışmağı tövsiyə edib.

Görüşdə çıxış edən Müzəffər Azərbaycan Ordusunun qalib əsgəri İmran Məmmədov 44 günlük Vətən müharibəsi günlərində keçdiyi şərəfli döyüş yolu, iştirak etdiyi Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd, Şuşa, Laçın uğrundakı döyüşlər haqqında gənclərə məlumat verdi və müharibə günlərində həm ön, həm arxa cəbhədə Azərbaycan Ordusuna göstərilən yüksək diqqət və qayğıya görə möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevə və bütün Azərbaycan xalqına təşəkkür edib.

Videokonfransda çıxış edən gənclər "2 Fevral - Azərbaycan Gəncləri Günü" münasibətilə bütün gəncləri təbrik edib, Vətən müharibəsində döyüş meydanında qəhrəmanlıq dastanı yazan əsgərlərimizin igidliyindən, arxa cəbhədə gənclərin informasiya məkanındakı mübarizəsindən, "2020-ci il Könüllülər ili" çərçivəsində pandemiya ilə mübarizədə görülən işlərdən danışaraq, gələcək fəaliyyətləri ilə bağlı bir çox təklif və təşəbbüslərini səsləndiriblər.

Sonda 2020-ci ildəki fəaliyyətlərinə görə bir qrup fəal gənc YAP Səbail rayon təşkilatının Fəxri Fərmanları və Sertifikatları ilə təltif olunublar.

***Rəfiqə HÜSEYNOVA***

## Hande Harmancı: Hazırda Azərbaycanda koronavirusla bağlı vəziyyət çox yaxşıdır



Hazırda Azərbaycanda koronavirusla bağlı vəziyyət çox yaxşıdır. Həm ölüm sayları, həm də yeni yoluxma halları azalıb. Bu, hökumətin gördüyü tədbirlərin səmərəliliyini, həm də insanların tələb olunan qaydalara riayət etdiyini göstərir. Bunun davamı çox önəmlidir. Məlumdur ki, dünyada koronavirusun yeni mutasiyaları var. Bütün görülən işlər mutasiyalara qarşı da effektivdir. Ona görə də insanların özlərini qorumağa davam etməsi vacibdir. AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibəsində deyib.

O, peyvəndlərin təsirləri barədə danışaraq deyib: "Peyvəndlərin insanlara tətbiqindən öncə klinik sınaqlar həyata keçirilir. Təhlükəsiz olduğu halda insanlara tətbiq edilməyə başlanılır. Lakin bundan sonra monitorinq çox önəmlidir. Hazırda dünyada COVID-19 əleyhinə geniş istifadə olunan vaksinlərin monitorinqləri aparılır. Hələ ki, peyvəndlərdən sonra ciddi bir əks-təsirə rast gəlinməyib. Buna baxmayaraq, monitorinqlərin davam etdirilməsi zəruridir. Vaksinasiyadan sonra ölüm hallarının qeydə alınması faktları araşdırılır. Çünki hər gün insanlar müxtəlif səbəblərdən vəfat edirlər. Vaksin vurulan insanlar da fərqli səbəblərdən vəfat edə bilərlər. Onun vaksinlə əlaqəsini olub-olmamasının araşdırılması çox önəmlidir. Avropada aparılan tədqiqatlarda bu ölümlərin birbaşa peyvəndlərlə əlaqəsi olmadığı müəyyənləşib. Lakin vəziyyəti izləmək vacibdir".

# Belə deyirlər ki, ağladır yeri...

***Prezident İlham Əliyevin 2021-ci ildə Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi bütün xalqımızın ürəyindən xəbər verdi. Həqiqətən də Şuşa XIX əsrdən başlayaraq nəinki Azərbaycanın, eləcə də Cənubi Qafqazın mədəniyyət mərkəzi, “Qafqazın konservatoriyası” kimi məşhur idi. Başqa sənətlərlə bərabər, musiqi, xüsusilə muğam ifaçılığı burada intişar tapmışdı. Qarabağ xanəndələri Yaxın və Orta Şərqdə də şöhrət qazanmışdılar. Təsadüfi deyil ki, ölməz şairimiz Səməd Vurğun “Vaqif” pyesində Ağaməhəmməd Şah Qacarın dili ilə belə demişdi:***



Belə deyirlər ki, ağladır yeri,
Sizin Qarabağın xanəndələri,
Hünəriniz varsa, bir “Rast” oxuyun!

Bu gün cəsarətlə deyə bilərik ki, nəhəng muğam ustası Xan Şuşinskinin 1934-cü ildə ifa etdiyi “Qarabağ şikəstəsi”ni hələ də o səviyyədə oxuyan yoxdur. Yəqin bu muğamı Azərbaycanda sevə-sevə zümzümə etməyən tapılmaz. Səməd Vurğun hamımızın sevdiyi, səslənərkən iftixar hissi keçirdiyi “Azərbaycan” şeirində bunu vəsf etmiş, Xanın gözəl ifasına öz məhəbbətini belə ifadə etmişdir:

Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
“Qarabağın şikəstəsi.”

Şuşa torpağında doğulub yetişmiş daha bir mahir muğam ifaçısı-Seyid Şuşinski Azərbaycanda olduğu kimi, Gürcüstanda da o qədər sevilirdi ki, oranın varlı adamları Seyidi öz toylarına dəvət edir, bir məclisdən o biri məclislərə aparır və aylarla buraxmırdılar. Şahidlərin dediklərinə görə, Seyid muğam oxuyanda dinləyicilər o qədər zövq alırdılar ki, donub səs-səmir çıxarmır, səsin sehrinə düşür, pul əvəzinə xanəndənin qavalına qızıl atırdılar. Sonsuz sevgi qazanan xanəndəyə ehtiram o qədər yüksək idi ki, zəngin adamlar ona dəbdəbəli saray və “Mersedes” markalı minik maşını da bağışlamışdılar. Səxavətli və insaflı olan Seyid Şuşinski Gürcüstanda kasıb yaşayan xanəndələrə, Bakıya gələndə çətin dolanan sənət adamlarına, qəzet-jurnal çap etdirməkdə çətinlik çəkən redaktorlara lazımi qədər pul verirmiş. Görkəmli satirik yazıçımız Cəlil Məmmədquluzadə yazırdı ki, Seyid Şuşinski “Molla Nəsirəddin” jurnalının iki nömrəsinin çapının pulunu vermişdi.

Şuşalı xanəndə Hacı Hüsünün də səsi Yaxın Şərq ölkələrindən gəlirdi. 1780-ci ildə İranın padşahı Nəsirəddin Şah onu oğlunun toyuna dəvət etmişdi. Toyda başqa xanəndələr də vardı. Məclisdə xanəndələrin müsabiqəsi keçirildi. Hacı Hüsü zil səslə və şövqlə elə bir “Çahargah” oxudu ki, tamaşaçılar alqışlamaqdan yorulmurdular. İfa şahın da xoşuna gəldiyi üçün Nəsirəddin Şah özünün təyin etdiyi birinci mükafatı Hacı Hüsüyə vermişdi.

Göstərdiyimiz kimi, Şuşada saysız-hesabsız xanəndələr, muğam ifaçıları, bəstəkarlar, opera müğənniləri, aktyorlar yetişib. Xanın, Seyidin, Keçəçioğlu Məmmədin, Cabbar Qaryağdıoğlunun, Bülbülün, Rəşid Behbudovun, Hacı Hüsünün, Əbülfət Əliyevin və bir çox başqalarının ifaları Azərbaycan radiosunun və televiziyasının qızıl fondunda indi də saxlanır.

Ecazkar bəstələri ilə dünyada şöhrət qazanmış dahi Üzeyir Hacıbəyli Azərbaycanın musiqi xəzinəsinə qiymətli incilər bəxş edib. Bəstəkarın “Arşın mal alan” və “O olmasın, bu olsun” musiqili kinokomediyaları qısa müddətdə dünyanın 60 ölkəsində nümayiş etdirilib. Xarici tamaşaçılar hər iki kinokomediyaya həvəslə tamaşa edərək onları dünya kino sənətinin nümunələri kimi yüksək qiymətləndiriblər. Mübaliğəsiz demək olar ki, “Koroğlu” operası isə Üzeyir bəyin yaradıcılığının zirvəsidir. Operadakı möhtəşəm “Üvertüra” əvvəldən yazılmayıb və sonra yazılaraq əlavə olunub. “Koroğlu” operasının “Uvertüra”nın da daxil olduğu tam variantı tamaşaçı auditoriyası qarşısında, 1938-ci il aprel ayının 2-də Moskvada keçiriləcək Birinci Azərbaycan İncəsənəti Dekadası ərəfəsində, əsərin baş məşqində çalınıb. Maraqlıdır ki, bu dekada zamanı “Koroğlu” operası tamaşaçıların xahişi ilə iki dəfə təqdim edilib. Dekadanın gedişində Sovet İttifaqının rəhbəri - “xalqlar atası” İosif Stalin operanı bəyənib, alqışlayıb və çox yüksək qiymətləndirib. Nəticədə Üzeyir Hacıbəyliyə və əsas partiyanın - Koroğlunun ifaçısı Bülbülə SSRİ Xalq artisti adı verilib. Bu əlverişli məqamı - Stalinin Üzeyir bəydən razılığını və əsərdən məmnun qaldığını görən Azərbaycan SSR-in o zamankı rəhbəri Mircəfər Bağırov fürsəti əldən verməyərək, dahi bəstəkarın taleyi ilə bağlı son dərəcə vacib bir məsələni - həmin vaxt mümkünsüz hesab edilən vacib bir məsələni həll etməyə çalışır. Axı, Üzeyir Hacıbəyli bəy nəslindən idi, AXC-nin Himnini o bəstələmişdi və qardaşı Ceyhun bəy sovet hakimiyyətini qəbul etməyərək Parisdə mühacirətdə yaşayırdı. Bunlara görə Mircəfər Bağırov Üzeyir bəyi labüd repressiyadan qorumaq üçün həyati baxımdan zəruri olan - Umumittifaq Kommunist (bolşeviklər) Partiyasına üzvlüyü məsələsinin həllini irəli sürüb. Məlumat var ki, Mircəfər Bağırovu həmişə yüksək qiymətləndirən və onunla hesablaşan Stalin şəxsi görüş zamanı Azərbaycan rəhbərinin “Üzeyir Hacıbəyovu partiyaya qəbul etmək lazımdır!” təklifinə gülə-gülə özünəməxsus hiyləgərliklə belə bir sualla cavab verir: “Bəs Hacıbəyova kim zəmanət verəcək?” Onda Mircəfər Bağırov usta bir gediş edərək: “Siz və mən!” deyə cavab verir. Üzeyir bəyin Kommunist Partiyasına qəbul olunması barədə maraqlı bir məlumat da var. Orada qeyd edilir ki, “Yoldaş Üzeyir Hacıbəyov Kommunist Partiyasına üzv olmaq üçün ərizə verdikdən sonra Azərbaycan Kommunist Partiyasının üzvlüyünə birbaşa, namizədlik stajı keçmədən qəbul olunmuşdur”. Maraqlıdır ki, hələ 1937-ci ilin dekabrında, Mircəfər Bağırov bu “xilasedici” prosesi daha etibarlı etmək üçün bəstəkar Üzeyir Hacıbəylinin SSRİ Ali Soveti (Sovet İttifaqı parlamentinə) deputatlığına Naxçıvan Muxtar Sovet Sosialist Respublikasından, “sarsılmaz bitərəflər və kommunistlər blokundan” namizədliyinin irəli sürülməsinə və seçilməsinə nail olmuşdu. Bu, SSRİ və Azərbaycan SSR rəhbərlərinin Üzeyir Hacıbəyli şəxsiyyətinə, yaradıcılığına dərin ehtiramının nəticəsi idi. Beləliklə, “Koroğlu” operasının uğuru, SSRİ rəhbəri İosif Stalinin “toxunulmazlıq” göstərişi və Azərbaycan SSR-in rəhbəri Mircəfər Bağırovun səyləri nəticəsində 30-cu illərin ikinci yarısından tüğyan edən siyasi repressiyalar Üzeyir bəydən yan keçir və dahi bəstəkar bundan sonra daha on il ömür sürərək, bir-birindən gözəl əsərlər yazır, Vətəninə, millətinə böyük faydalar verir.

Üzeyir bəyin zəngin musiqi irsi ölməzdir və solmazdır. Bu musiqi inciləri yüz illərlə yaşayacaqdır. Xüsusilə də onun “Koroğlu” operasının əzəmətlə səslənən “Uvertüra”sı artıq 85 ildən çoxdur ki, az qala hər gün səslənir, biz onu qürurla dinləyirik, Azərbaycan xalqı və dünyanın digər xalqları, böyük türk dünyası tərəfindən sevilir, alqışlanır. Dahi bəstəkarın əziz, işıqlı xatirəsi millətimizin yaddaşında və dünya musiqi tarixində haqlı olaraq əbədilik qazanıb. Bir çox sahələrdə sevilən korifeylər gözəl Şuşamızın Azərbaycana bəxş etdiyi töhfələrdir.

***Vəli İlyasov***

## Daha üç qazimiz yüksək texnologiyalı protezlərlə təmin edildi

Müasir protezlərin üstünlükləri nümayiş olunub, tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində görülən işlər və hədəflərə dair mətbuat konfransı keçirilib SİA xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial dəstək tədbirləri çərçivəsində Vətən Müharibəsi qazilərinin yüksək texnologiyalı protezlərlə təminatı davam edir. Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində müharibədə yaralanmış daha üç qazimiz - Ziya Ağami oğlu Kazımov, Rəşad Amin oğlu Əliyev və Kənan Nadir oğlu Musayev yüksək texnologiyalı protezlərlə təmin ediliblər.



Agentliyin sədri Cavid Əbdül-Qədirov həmin qazilərlə görüşüb. O, Prezident İlham Əliyevin müharibə iştirakçılarına xüsusi qayğısından bəhs edib, bu qayğının daha bir təzahürü kimi, dövlət başçısının müvafiq Sərəncamı ilə Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində yüksək texnologiyalı protezlərin hazırlanması sexinin qurulduğunu deyib. Bildirib ki, ötən ilin dekabr ayından müasir protezlərlə təminat həyata keçirilir və artıq 10 qazimiz 11 müasir protezlə təmin olunub.

Görüşdə müasir protezlərin üstünlükləri təqdim edilib. Qeyd edilib ki, dünyanın məhşur protez istehsalçılarından olan “OTTO BOKK” şirkəti (Almaniya) ilə əməkdaşlıq şəraitində yaradılan sexdə “Genium” sistemi üzrə protezlər hazırlanır. Bu protezlər yüksək aktivlik və funksionallıq dərəcəsi olmaqla, elektron oynaq əsasında hərəkətin tam və daha dəqiq tənzimlənməsinə, sabit, təhlükəsiz və inamlı, rahat hərəkətə imkan verir.

Sonra C.Əbdul-Qədirov tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində görülən işlər və hədəflərə dair mətbuat konfransı keçirib.

Agentlik sədri reabilitasiya sisteminin müasirləşdirilməsi işlərinin davam etdirildiyini bildirib. Qeyd edib ki, 2020-ci ildə Lənkəran, Xaçmaz, Şirvan, Şəki, Sumqayıt, Göygöl şəhər və rayonlarındakı reabilitasiya və sosial xidmət müəssisələri də əsaslı şəkildə təmir olunaraq və yenidən qurularaq istifadəyə verilib. Qazilərimizin səmərəli tibbi-sosial reabilitasiya xidmətləri ilə əhatə olunması üçün son illərdə müasir reabilitasiya infrastrukturu yaradılıb. Bu il üçün 4 müasir reabilitasiya və sosial xidmət müəssisəsi də açılacaq.

C.Əbdul-Qədirov ötən il əlilliyi olan 11344 şəxsin, o cümlədən, müharibə ilə əlaqədar əlilliyi olan 1648 şəxsin protez-ortopedik bərpa xidməti ilə təmin olunduğunu bildirib. Ümumilikdə əlilliyi olan şəxslərə 35 000 reabilitasiya vasitəsinin verildiyini deyib. O, postmüharibə dövründə də qazilərimizin ehtiyaclarına uyğun reabilitasiya vasitələri, sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin olunduqlarını qeyd edib.

Əlilliyin qiymətləndirilməsi sahəsində ötən il aparılan işləri diqqətə çatdıran Agentlik sədri əlillik təyinatlarının elektron sistem üzərindən şəffaf şəkildə aparıldığını diqqətə çatdırıb. Tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində e-texnologiyaların tətbiqi işlərinin davam edəcəyini deyib.

C.Əbdul-Qədirov ölkəmizin ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət almış hərbi qulluqçuların tibbi-sosial ekspertizasından da bəhs edib. O, Nazirlər Kabinetinin Qərarı əsasında yaradılmış komissiya tərəfindən bu sahədə operativ, vaxtında, keyfiyyətlə, mərkəzləşmiş şəkildə işlər aparıldığını diqqətə çatdırıb.

## Rusiya Azərbaycanla aviaəlaqəni bərpa edir



Rusiya Azərbaycanla aviaəlaqəni bərpa edir. SİA-nın məlumatına görə, bu barədə Rusiyanın baş naziri müvafiq qərar imzalayıb. Qeyd olunur ki, ölkələr arasında uçuşlar fevralın 15-dən etibarən bərpa olunacaq. Moskva-Bakı reysi həftədə 2 dəfə təşkil ediləcək.

# Çin gec-tez böyük hərbi güc statusu qazanacaq

## *İqor Korotçenko: Müasir Rusiya texnologiyalarını olduğu kimi kopyalamaq mümkün deyil*

***Hazırda ən vacib hərbi sirr hansılardır? Müasir qlobal silah bazarı çox böyük və gəlirlidir. Bununla birlikdə, silah nümunələrini sataraq onların yaradılmasında istifadə olunan gizli texnologiyaları necə qoruya bilərsiniz? Hərbi-texniki əməkdaşlıq sahəsində hansı tərəfdaşlar xüsusilə vacibdir? Xüsusi xidmətlər necə işləyir? Nüfuzlu hərbi ekspert, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko Pravda.Ru-ya müsahibəsində bu məsələlərdən danışıb. Müsahibəni təqdim edirik.***



**(Əvvəli burada)**
https://sia.az/az/news-/politics/851435.html

- İqor, dünyada kəşfiyyat fəaliyyətinin gücləndiyini, Rusiya ilə ABŞ-ın kəşfiyyat və əks-kəşfiyyat xidmətləri arasında rəqabətin davam etdiyini söylədiniz. İntellektual sirlər və texnologiyalar hazırda çox aktualdır. Silah satarkən özümüz istəmədən texnoloji inkişaflarımızı bölüşürük. Sirlərimiz necə qorunur?

- Bunun üçün silah nümunəsində ixracat görünüşü üçün pasport var. Taktiki və texniki xüsusiyyətləri baxımından ixrac edilən, lakin Rusiya ordusu üçün nəzərdə tutulmuş silah modellərindən bir qədər fərqlənən silah nümunələri.

Raket texnologiyasına bir nəzarət rejimi var - MTCR. Məsələn, yerüstü döyüş gəmiləri və ya sualtı qayıqlar üçün silah sistemlərinin bir hissəsi olaraq xaricə təmin etdiyimiz qanadlı raketlərin raket texnologiyasına nəzarət rejiminə uyğun xüsusiyyətləri var, yəni buraxılış məsafəsi 500 kilometrdən azdır.

Rusiya silahlı qüvvələrindəki oxşar sistemlərin buraxılış məsafəsi 1500 kilometrə bərabərdir - yəni 3 dəfə çoxdur. Buna görə məhdudiyyətə diqqət verilir.

### SİRLƏRƏ NƏZARƏT

Hər silah razılaşması imzalanmadan əvvəl hərtərəfli təhlildən keçir. Bir sıra nazirliklər, idarələr, xüsusi xidmətlər və təşkilatlar müəyyən bir Rusiya silah sistemlərinin müəyyən bir ölkəyə tədarükü imkanları barədə ekspert rəylərini təqdim edirlər.

Diplomatik, hərbi, hərbi-texniki və s. fərqli cəhətləri nəzərə alırlar. Sonra kollektiv olaraq bir qərar verilir. SVR (Xarici Kəşfiyyat Xidməti- E.B), Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, FSB (Federal Təhlükəsizlik Xidməti- E.B), Prezident Administrasiyası və bütün digər ixtisaslaşmış strukturların əleyhinə deyilsə, yalnız o zaman müqavilə bağlanır və çatdırılma həyata keçirilir.

Nəzarət sistemi kifayət qədər etibarlı işləyir. Əsas xüsusi ixracatçımız olan Rosoboroneksport-a əlavə olaraq, bütün silah ixracatı prosesinə nəzarət edən, lisenziyalaşdıran və dövlət maraqlarının keşiyində durmağı təmin edən Federal Hərbi-Texniki Əməkdaşlıq Xidmətimiz var.

### ÇİN VƏ HINDISTAN

Sadə bir silah nümunəsini- avtomatik tüfəng və başqa bir şeyi yığmaq, sökmək və kopyalamaq bir şeydir. Alqoritmlərin, tamamilə qeyri-şəffaf olan daxili məqamların olduğu üçün kopyalamanın mümkün olmadığı kompleks bir silah sistemi isə tamamilə başqa bir şeydir.

Bunu tapmaq üçün məlumat daşıyıcılarını və yaratma texnologiyasını axtarırlar. Bu müasir dünyada belədir. Əslində bu, həmişə belə olub.

Bu və ya digər Rusiya silah sistemini satın alan bir ölkədə, onun taktiki və texniki xüsusiyyətlərini pisləşdirmədən çoxaltmaq tamamilə mümkün deyil - bu, müasir texnologiyanın səviyyəsidir. Buna görə, hər halda, çinlilər, Rusiyada ən modern hərbi texnologiyala nümunələrini alsalar da, onları 100% dəqiqliklə çoxalda bilməyəcəklər.

Çinlilər başqalarının nümunələrini klonlaşdırsalar da, yenə də öz hərbi qabiliyyətlərini inkişaf etdirirlər. İqtisadiyyat buna imkan verir, təyyarə istehsalına da daxil olmaqla elmi və texniki inkişafa, öz fabriklərinə, gəmiqayırma zavodlarına, böyük maliyyə mənbələri investisiya edirlər.

Bu gün Çin donanmasının qurulma sürəti Amerika gəmiqayırma zavodlarında döyüş gəmilərinin istehsal nisbətindən yüksəkdir. Çin böyük bir hərbi güc statusuna doğru irəliləyir. Gec-tez bu statusu qazanacaq. Çinlilərin nüvə qüvvələrini sürətlə inkişaf etdirməmələri, nüvə raketlərinin sayının nisbətən az olması başqa bir məsələdir.

Əlbətdə ki, Çinlə yaxın hərbi-texniki əlaqələrə görə, bu prosesin bütün əhəmiyyəti baxımından Hindistan bizim üçün daha da prioritet tərəfdaşdır. Hindistan bir çox inkişaf etmiş müasir silah sistemlərimizi əldə edir, baxmayaraq ki, “Hindistanda hazırla” şüarına uyğun texnologiya almağa çalışır. Bu müasir dünya reallığıdır- rəqabət və əks-fəaliyyət.

### QAPALI PROSES

Heç kim bizi alqışlarla gözləmir, silah satışı həmişə çox çətin və qapalı bir prosesdir, amma biz bu işdə uğurluyuq.

Rusiya ixracatında neft və qaz gəlirlərinin yüksək olduğu üçün Obama bizi bir “yanacaqdoldurma stansiyası” adlandırsa da, dəqiq cihazlar, maşınqayırma və müdafiə sənayesi sahələrində çox rəqabətliyik. Silahlarımızın alternativə sahib olmaq istəyən ölkələr üçün cəlbedici qalması üçün hər şeyi etməliyik.

### DÜŞMƏN YATMIR

Əlbətdə ki, hər kəs başqalarının sirlərini bilmək istəyir. Baxın son vaxtlar hərbi intellektual dairələrin nümayəndələrinə qarşı nə qədər casusluq və ya xəyanət hadisəsi başlandı. Bütün bunlar müxtəlif ölkələrin kəşfiyyat orqanlarının fəal işinin nəticəsidir və bəzi insanların vasitəsilə məlumat almağa çalışırlar.

Rusiya Federasiyası ərazisində, bizə rəsmi olaraq dost olanlar da daxil olmaqla bir sıra dövlətlərin, xüsusən də Çinin xüsusi xidmətləri bu gün çox fəaldırlar. Ancaq bu kəşfiyyat xidmətlərinin dünyasıdır. Milli maraqlar üstünlük təşkil edir. Bu səbəbdən hər hansı bir ölkə, hər hansı bir xüsusi xidmət öz ölkəsinin mənafeyi naminə problemləri həll edir. Kəşfiyyat və əks-kəşfiyyat arasında hər zaman bir rəqabət var.

*Davamı olacaq*

***Müsahibə aldı: İnna Novikova***

***Tərcümə etdi: Elçin Bayramlı***

# Lavrov ikili standartlardan danışdı

**Rusiya xarici işlər naziri Sergey Lavrov Rusiyada və Qərbdə nümayişlərin mediaya açıqlanmasında ikili standartların tətbiqi barədə danışıb. SİA RİA Novostiyə istinadən xəbər verir ki, Rusiya XİN başçısı iordaniyalı həmkarı Ayman Hüseyn Abdullah əs-Səfadi ilə danışıqlardan sonra təşkil olunan mətbuat konfransında bu barədə öz fikirlərini açıqlayıb.**



“Rusiyadakı hadisələrin və Qərbdəki müxalifət nümayəndələrinin çıxışlarının işıqlandırılması da ikili standartlardan əziyyət çəkir”, deyə Lavrov bəyan edib.

Onun sözlərinə görə, Rusiyadakı hadisələri işıqlandırdıqda nümayişçilərin hərəkətlərinə praktik olaraq yalnız polisin reaksiyasını göstərirlər və nümayişçilərin hərəkətləri pərdə arxasında qalır: “Baxmayaraq ki, İnternetdə onların Moskvada və Rusiyanın digər şəhərlərində nə qədər aqressiv olduğunu görmək asandır. Qərb mediası öz ölkələrindəki eyni hadisələri işıqlandırdıqda, şüşələrin qırılması, maşınların yandırılması kimi nümayişçilər tərəfindən törədilən vəhşilik nümayiş etdirir, lakin polis vəhşiliyini gizlədir. Məsələn, Amerikada polis maşını Asfalt üzərində uzanan nümayişçilərin cəsədlərinin üstündən keçir, amma bu pərdə arxasında saxlanılır və yalnız sosial şəbəkələrdə bu görüntülər tapıla bilər”.

***İnam Hacıyev***

# Qul yiyəsiz olanda, “bəy” olmaq istəyənlərin sayı artar...

***Bu gün Ermənistanda gələcək baş nazir postuna secimlə bağlı yaşananlar, adama “ağıllı olub tək qalmaqdansa, hamı ilə birlikdə dəli olmaq yaxşıdır” aforizmini xatırlayır. Maraqlıdır ki, hazırda ölkədəki əksər ermənilər israrlıdır.***



Onlar kimin baş nazir olmasından asılı olamayaraq, Paçinyanın getməsini istəyirlər. Onların bir çoxuna görə, hər halda, Nikoldan pis olmayacaq. Əslində ermənilər açıq etiraf etməsələr də, Qarabağdan sonra, Ermənistanın dövlət kimi, xəritədən silinməsindən, məhv oub getməsindən qorxurlar. SİA bu qənaətə erməni saytlarını nəzərdən keçirərkən gəlir.

Qeyd edək ki, hazırda Nikol və onun komandasının hakimiyyəti tərk etməsi ilə bağlı ehtimallar başadüşüləndir. Ermənilərə görə, burada sual prinsipcə həll edilmiş kimi görünsə də, amma hələ ki, vaxt hazırkı hakimiyyətin xeyrinə işləyir. Qeyd edək ki, bunu Ermənistandakı son yaşantılar da təsdiq edir, yəni “qırılmayan” hazırkı hakimiyyətin sona qədər müqavimət göstərəcəyi istisna edilmir. Buna görə, bu gün Nikolun yerinə kimin gələcəyi sualı, ehtimal olanan istefadan daha az aktual və mövcud baxımdan vacibdir.

Xatırladaq ki, bir müddət əvvəl müxalifət Vazgen Manukyanın simasında baş nazirliyə vahid namizədin adını açıqladıqda və qəribə də olsa çoxları onu “kamikaze” kimi təqdim etməyə başladı. Manukyan özü də gələcək baş nazirin fəaliyyətini bənzər bir şəkildə təsvir etdi: “bir intiharçı vəzifəsi”. Qeyd edək ki, ermənilərin Manukyana önəm vermələri onun vaxtilə Ermənistanda baş nazir olması və ölkədəki böhran idarəçiliyi təcrübəsinə sahibliyi ilə bağlıdır. Ermənilər Paşinyan və onun komandasının səriştəsizliyi üzündən ölkəni bürüyən kəskin siyasi və milli böhranı Manukyanın aradan qaldıracağına ümidlidirlər. Bəli, hərçənd ki, elə bir əsas olmasa da, onlar ümidlidirlər...

Yeri gəlmişkən, burada adamın “qul çox olan yerdə bəy olmaq istəyənlər”lə bağlı məsəl yada düşür. Belə ki, bu gün Ermənistanda yaranmış vəziyyətdən yararlanmaq istəyən erməni deputat Edmon Marukyan da ümidsiz bir şəkildə hakimiyyətə can atır. Yəni o da Ermənistanda baş nazir olmaq istəyir. Amma, məsələ bundadır ki, Ermənistanda çoxları bu gün Edmondu Paşinyanın gizli müttəfiqi kimi, qəbul edirlər. Məhz bu mənada onun hakimiyyətə gələ bilmək ehtimalı elə də inandırıcı görünmür.

Bu arada siyasi fəaliyyətinin 20 ili ərzində elə də bir fəaliyyəti ilə yadda qalmayan Tiqran Urixanyan da Ermənistanda baş nazir olmaq istəyini bəyan edib. Maraqlıdır ki, həm Marukyan, həm də Urixanyanın siyasi tərcümeyi-halları tamamilə fərqli olsa da, lakin bir cəhətdən bənzəyirlər: hər ikisi siyasi və tarixi mənşəyi olmayan və ümumiyyətlə cırtdan olan partiyaların qurucu və liderləridir.

O da maraqlıdır ki, bir çox ermənilər idarəedicilikdə heç bir təcrübəsi olmayan Marukyan və Urixanyanın yaranmış vəziyyətdə dövlət başçısı postuna olan iddialarını qəbul etsələr də, onların fəlakət vəziyyətində olan bir ölkənin baş naziri olmağa tələsdiklərini bildirirlər.

...Bu gün ermənilər, biruzə verməyə çalışmaq istəməsələr də, çox bədbindirlər. Onlar Nikolun gedişi ilə hər şeyin normallaşacağı və problemlərin öz həllini tapacağına ümid etmək istəyirlər. Bununla belə, cəsarət etməsələr də, Tanrının köməyi ilə birtəhər, elə əvvəlki kimi, Rusiyanın qanadı altında yaşayacaqlarına ümidlidilər. Təbii ki, tarix əvvəl-axır hər şeyi yerinə qoyur...

***Ağasəf Babayev***

# Gənclik ən böyük məsləyinə qovuşdu



***Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edilən qalib xalqdır. Əlbəttə ki, tarixi qələbəni bəzə yaşadan Azərbaycan Prezidenti İlham Əliyevdir, Müzəffər Azərbaycan Ordusudur. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasını ilə nəticələndi. Artıq 30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımıza ayaq basırıq. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı.***

Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğurunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz nəyə qadir olduqlarını göstərə bildilər. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Artıq bu gün tarixiləşdi.

### "GƏNCLƏR BİZİM GƏLƏCƏYİMİZDİR"

Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər gənclərdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Məlumdur ki, ölkəmizdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirilib. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan edib. Ulu Öndər Heydər Əliyev hər zaman "Gənclər bizim gələcəyimizdir" ifadəsini xüsusi vurğu ilə səsləndirərək, gənc nəsli ictimai-siyasi həyatda fəal iştirak etməyə həvəsləndirərək dövlət siyasətinin həyata keçirilməsində gənclərə xüsusi önəm verməişdi. Azərbaycanda fevral ayının 2-nin Gənclər Günü kimi qeyd edilməsi də Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ölkəmizdə Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir.

### "MƏN ÇOX ŞADAM Kİ, SON İLLƏR ƏRZİNDƏ AZƏRBAYCANDA VƏTƏNPƏRVƏR, GÜCLÜ, MİLLİ RUHDA TƏRBİYƏ ALMIŞ GƏNC NƏSİL YETİŞİB"

Vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayandı. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgsini bir daha göstərimiş oldu. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, on yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm: "Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Bəli, Azərbaycan tarixi ədaləti bərpa etdi. Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağını hər şeydən uca tutan gənclərimiz qürur mənbəyimiz, and yerimiz olan Bayrağımız qarşısında baş əyərək müqəddəs varlıq kimi ona and içdilər. Bu Azərbaycan Ordusunun, gəncinin sahib olduğu gücə, bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlandı. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşuldu. Budur bayrağın müqədəsliyi və bayrağımıza olan sevgi. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Azərbaycanın işğaldan azad olunan yerlərinə sancılıb.

### VƏTƏN OĞLU, AZƏRBAYCAN SƏNİ HEÇ VAXT UNUTMAYACAQ!

İşğal altında olan torpaqlarımızın işğaldan azad olunmasında şəhid olan gənclərimiz, eləcə də qazilərimiz Vətən müharibəsində bir çox strateji yüksəkliklərin alınmasında fəal şəkildə iştirak etdilər. Döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid oldular. 30 ilə yaxın düşmən tapdağında olan torpaqları azad etmək hər bir Azərbaycan gəncinin ən böyük arzusu idi. Buna nail oldular: Qarabağ Azərbaycanındır!

Gənclərin rəşadəti sayəsində əldə olunan qələbə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarını dünya ictimaiyyətin diqqətinə çatdırdı.

Torpaq uğrunda şəhid olan Azərbaycanın igid oğullarının qəlbimizdə abidələri ucalıb. Vətən savaşında şücaət göstərərk düşmənə dönməzliyini sübut edərək vətən qarşısında öz borclarını vermiş oldular. Ruhun şad olsun igid vətən oğlu, Azərbaycan səni heç vaxt unutmayacaq. İgidlik göstərmiş vətən övladları, gəncləri dövlət başçısının sərəncamı ilə yüksək adlara, mükafatlara layiq görüldülər. Bu onlara qarşı bir ehtiramdır, diqqətdir. "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və s. medallarla təltif olundular. Bütün bunlar dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına, gənclərimizə olan diqqətinin, qayğısının təzahürüdür.

Bu gün hər bir gəncin üzərində böyük məsuliyyət var. Hər bir gənc Azərbaycanın inkişafı, onun yüksəlməsi uğrunda daha da əzmlə çalışmalı, töhfələrini verməlidirlər. Qarabağın yenidən qurulmasında Azərbaycan gənclərinin rolu böyük olacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan özünə zəmanət verə bilmirsə...

### Erməni ictimai-siyasi rəyindəki fikir ayrılığının daha bir nümunəsi

Bugünlərdə erməni ictimai-siyasi rəyində daha çox danışılan mövzulardn biri qondarma "dqr"in saxta "prezidenti" Araik Arutunyanla Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərimizdəki qanunsuz silahlı dəstələrin mərhələli olaraq çıxarılması ilə bağlı apardıqları gizli danışıqları ilə bağlıdır. Artıq o da məlum olub ki, bu ərazilərdə qalan havadan müdafiə kompleksləri də Ermənistana doğru çıxarılmağa başlayıb. Söz yox ki, bu proses digər tələblərin də yerinə yetirilməsinə qədər davam edəcək və xüsusilə üçtərəfli bəyanatda əks edilən müddəalar tam şəkildə icra olunmazsa, hər hansı böyük sülh razılaşmasından danışmağa da dəyməz. O zamana qədər ki, Xankəndi də daxil olmaqla, Xocalı, Əsgəran, Xocavəndin bir hissəsi və s. müvəqqəti olaraq nəzarətimizdə olmayan ərazilərimiz tam şəkildə, rəsmən Azərbaycanın yuridiksiyasına keçsin!

Məhz bundan sonra atəşkəs rejimi sülh danışıqları ilə əvəzlənə, bununla da növbəti müharibə təhlükəsinə birdəfəlik son qoyula bilər. Çünki o da məlumdur ki, bu gün Ermənistanda və Qarabağda revanşist dəstələr hələ də mövcuddur və hər an onlar tərəfindən sui-qəsdlər, diversiyalar, silahlı təxribatlar, terror aksiyaları törədilə bilər.

### Xüsusilə, Rusiyanın Qarabağdakı mandatına xələl vurular və bu heç də ermənilərə yaxşı nə isə vəd edə bilməz



Lakin sözügedən məsələdə maraqlı olan daha bir amil budur ki, Ermənistanın birləşmiş müxalifətinin vahid namizədi Vazgen Manukyan belə bir fikirlə çıxış edərək deyib ki, əgər bu gün Ermənistan "dqr"in "müstəqilliyini" tanıyarsa, ölkə daha ağır fəsadlarla qarşı-qarşıya qala bilər. Xüsusilə, Rusiyanın Qarabağdakı mandatına xələl vurular və bu heç də ermənilərə yaxşı nə isə vəd edə bilməz. Nəzərə alarsaq ki, Manukyan həqiqətən də rusiyapərəstdir və hətta hakimiyyətə yiyələnəcəyi mümkün olarsa belə, ermənilərin saxta arzuları çin olmayacaq, bu zaman oradakı siyasi proseslərin sonrakı taleyini indidən təsəvvür etmək mümkündür. Amma daha bir maraqlı fakt budur ki, Ermənistanın digər siyasi adamları da müxtəlif fikir səsləndirərək, ölkələrinin "dqr"in "qarantı" olub-olmaması ətrafında bir-birilərinə qarşı zidd müzakirələr aparırlar.

Erməni sosial şəbəkə seqmenti: "Sizin günahınız üzündən Ermənistan hətta Sünikdə (Zəngəzurda) öz sərhədlərini qorumur, hansı qarantiyadan söhbət gedə bilər?"

Misal üçün, müxalifətçi Maarifçi Ermənistan Partiyasının deputatı Edmin Marukyan iddia edib ki, Ermənistan daha "dqr"in "qarantı" deyil. Hakim "Mənim addımım" blokunun deputatı Ruben Rubinyan isə əksinə - iddia edib ki, Ermənistan "dqr"in "qarantı" kimi qalmaqda davam edir.

Bu arada, ermənilərin sosial şəbəkələrində də bu mövzulda müzakirələr aparılır və əsasən, hakim partiyanın deputatı hədəfə alınaraq onun fikirləri istehza ilə qarşılanır. "Rubinyanın sözlərindən sonra Sülhməramlı qüvvələrin və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin mənsubları hansısa bir güşədə xısın-xısın gülürlər", yazan erməni sosial şəbəkə istifadəçiləri "Sizin günahınız üzündən Ermənistan hətta Sünikdə (Zəngəzurda - R.R.) öz sərhədlərini qorumur, hansı qarantiyadan söhbət gedə bilər? Sizin hamınız milli məclisin (parlamentin) həblərinin təsiri altındsınız? Artıq yerə enin", fikirlərini də önə sürürlər.

Bu amil isə həm də belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, Ermənistan nəinki fəaliyyətinə son qoyulmuş qondarma "dqr"in, hətta özünün də qarantı deyil. Fakt, bunu elə erməni xalqının özü də etiraf etməkdədir, özü də istehza ilə...

***Rövşən RƏSULOV***

# Koçaryanın Rusiyaya səfərində məqsəd bəllidir, amma...

***Koçaryanın Ermənistanda hakimiyyətini geri qaytarmaq məqsədilə, həm də “ağası”ndan xeyir-dua almaq üçün Moskvaya getməsi bir çox mətləbləri də ortaya çıxarır. İşğalçı ölkənin eks-prezidentinin könlünə hakimiyyət sevdası düşüb və bu sevdası yolunda da bütün Ermənistanı ayaqlar altına atar. Özü də çoxdandır ermənilərdən yanıqlı olan rusların, Rusiya prezidentinin ayaqları altına atmağa hazırdır. Çünki, elə erməni baş nazirdən də, onun yan-yörəsindən də kifayət qədər yanıqlıdır və edəcəklərinə görə gözlərini belə qırpmaz.***

Ermənistan adlı işğalçı ölkədə qəribəliklər adi hal alıb və məhz buna görə də olanlar və olacaqlarla kimləri isə təəccübləndirməyin mümkünsüzlüyü çoxdan qəbul olunub. Məsələn, hələ də Ermənistanda məhkəmə sistemi qəribədir. Bəzən olduqca gözlənilməz qərarlar verilir. Hər belə bir gözlənilməzliyin arxasında korrupsiyanın gizlənməsi də şərt deyil. Bu və ya digər məhkəmə qərarının ya icra hakimiyyətinin təzyiqi ilə, ya da siyasi sifarişlə şərtləndirildiyi bəlli olur. Ancaq bəzən qərarın bu qərarı verən hakimin xüsusi xidmət orqanlarının təzyiqi altında olması faktı da ortaya çıxır.

Keçmiş prezident Robert Koçaryanın 3-8 fevral tarixlərində xaricə səyahət etməsinə icazə verən hakim Anna Danibekyanın məntiqini qətiyyən anlamaq mümkün deyil. Məhkəmənin qərarına görə, polis Koçaryanın səyahətinə qoyulan məhdudiyyətləri müvəqqəti olaraq ləğv edir, üstəlik, nə prokurorluq, nə də cəmiyyət məhkəmədən Koçaryanın niyə məhz bu müddət ərzində Ermənistanı tərk etməsinə icazə verildiyi barədə izah tələb etmir. Ancaq eks-prezident, 1 Mart 2008-ci il tarixindəki etiraz aksiyalarının dağıdılmasına dair cinayət işi çərçivəsində konstitusiya quruluşunu devirmək ittihamı ilə günahlandırılır. Buna baxmayaraq, məhkəmə Koçaryanın ölkəni tərk etməsinə icazə verib, hətta onun Moskvaya gedəcəyi də məlumdur.



Anna Danibekyanın bu qərarında Ermənistan hökumətinin izini axtarmaq, tapmaq çətin işdir. Nikol Paşinyanla yanaşı, Koçaryanın da cəzadan qaçmaq istəyi və ya Moskvaya bu məqsədlə getməsi qətiyyən inandırıcı görünmür. Axı keçmiş prezidentin hansı məqsədlə “görüşə” getdiyini təxmin etmək çətin deyil. İndi siyasi müxalifət konsolidasiya olunduqda və Paşinyana qarşı yürüşə rəhbərlik edə biləcək bir adam axtarıldığı zamanda, hansı ki, hazırkı müxalifət “lideri” Vazgen Manukyan çox “yumşaq” və nüfuzdan istifadə edə bilməyən biri kimi sayılmır, ikinci prezidentin səfəri anlaşılandır. Doğrudur, bu səfərə müxtəlif don geyindirilirsə də bu izahatlar, elə erməni axmaqları üçün nəzərdə tutulub.

Ermənistanda hakimiyyəti geri ələ almaq, bərpa etmək üçün Robert Koçaryanın xeyir-dua almaq məqsədli Moskva səfəri, Putini ziyarət etmək cəhdi tamamilə açıq-aşkar bilinir. Bir çox ermənilər belə hesab edirlər ki, hətta indi Moskvanın da Ermənistanın başında görmək istədiyi yalnız Koçaryandır. Çünki dəliliyi ilə ad qazanan, öncədən haqqında söylənilməsi mümkün olmayan, nə edəcəyi anlaşılmayan Paşinyanı yola gətirməkdənsə, Koçaryan yola gəlmiş şəkildə Rusiya üçün hazır fiqurdur. Koçaryan da, öz növbəsində, hakimiyyəti müqabilində Rusiyanın “altında yatmağa” hazırdır. Hazırdır ki, Putinin bircə işarəsi ilə Ermənistanı olan-qalan dövlət müstəqilliyinin qalıqlarından da məhrum etsin. Əgər onun Ermənistanda hakimiyyətə gəlməsinə razılıq verilərsə, yaxud hakimiyyətə gətirilərsə, ruslar qarşısında Robert Koçaryan diz çökməyə belə hazırdır. Bax, elə məhz buna görə də Koçaryan Moskvaya gedir ki, diz çöksün. Əslində, Azərbaycan qarşısında, Azərbaycan Ordusu, Ali Baş Komandanımız qarşısında diz çökən ölkənin istənilər adamı gedərkən, kimliyindən, hara getməsindən asılı olmayaraq, diz çökmüş durumda gedəcəyi bəlli məsələdir və Koçaryan da əvvələ, elə məhz bu durumdadır.

Xatırladığımız kimi, keçən ilin dekabrında Koçaryan artıq Moskvada xüsusi səfərdə olub. Hətta, bunun ardınca Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı da aparıb. Amma təəccübləndirici, fəqət təsdiqedici məqam ondan ibarətdir ki, iki “dost” arasında işğalçı ölkənin fəlakətli durumunun müzakirəsi olmayıb. Özü də cəmi 44 günlük müharibədən biabırçı məğlubiyyətlə, rüsvayçı durumda çıxan ölkə nə əcəbsə müzakirə mövzusu olmayıb. Niyə? Bəllidir ki, Koçaryan elə o zaman da öz əlinə oynamağa, özü üçün hakimiyyət istəyi ilə getmişdi.

İndi isə başqa bir sual ortaya çıxır, görəsən, hakim Anna Danibekyan, haqqında bu cür ciddi ittihamlar irəli sürülən şəxsin ölkəni tərk etməsinə hansı əsasla icazə verir? Yeri gəlmişkən, keçən yay eyni hakim, yəni Anna Danibekyan eyni cinayətdə ittiham olunan keçmiş KTMT baş katibi Xaçaturovun Ermənistan ərazisini tərk etməsinə icazə verməmişdi axı. Bəs, Koçaryanla eyni cinayət işində olan Xaçaturova niyə icazə verməmişdi möhtərəm hakim? Üstəlik, iki gün öncə dəfn olunan valideynləri və qardaşını ziytarət etmək kimi Xaçaturovun Gürcüstana getmək üçün daha əsaslı bir səbəbi də var idi. Lakin hakim Anna Danibekyan bu tələbi rədd etdi və əsassız bəhanələr uydurdu.

Ancaq Xaçaturovdan fərqli olaraq Koçaryanın Moskvaya getməsi qadağan olunmadı hakim tərəfindən. Heç bir bəhanə belə gətirilmədi. Bu məqamda Ermənistan adlı dağılmaqda olan ölkənin hakim Anna Danibekyana hansısa təsirindən danışmaq gülünc olardı. Məsələ burasındadır ki, Anna Danibekyan məsələsində yalnız üçüncü variant inandırıcı görünür ki, bu da onu belə bir qərar qəbul etməyə, icazə verməyə vadar edən, məcbur edən Rusiya xüsusi xidmət orqanlarının müdaxiləsidir. Və bütün bunlar da onu deməyə əsas verir ki, Koçaryan hakimiyyət sevdası ilə Rusiyaya gedir və boyunduruq altına girməyə çoxdan razılıq verib.

***İnam Hacıyev***

# “Bu erməni namussuzlar, vicdansızlar, hələ bir məhkəməyə də müraciət edirlər”



“Ermənistanın Azərbaycana qarşı Avropa Şurasının insan hüquqları Məhkəməsində iddia qaldırması anormallıqdır və gülüş doğurur”. Bunu “Səs” qəzetinə açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, Ermənistan özü terrorçu dövlətdir: “Ermənistan Azərbaycanın torpaqlarını işğal etmiş və 1 milyondan çox insanı yerindən, yuvasından didərgin salmışdı. Bu mənfur dövlət Xocalıda soyqırımı aktı törədib. Günahsız insanları qıranda siz ermənilər insan hüquqlarına riayət edirdiniz? Bu gün o məhkəmənin üzvləri gəlsin Ağdamın, Füzulinin, Cəbrayılın, Zəngilanın halına baxsınlar. Zəngilanda qəbiristanlıqlarda mərhumların cəsədini çıxardıb qızıl dişlərini söküblər. Sizlər cinayətkarsınız və bu baxımdan nə haqla və kimə şikayət edirsiniz? Əgər işğaldan azad edilmiş ərazilərdə Azərbaycan ordusu bayrağını sancmaq üçün bir dənə də olsun sağlam bina tapmayıbsa, hər şeyi xarabaya çeviriblərsə, gözəl abad bir məkanın daşını-daş üstə qoymayıblarsa, hansı hüquqdan danışırlar? Bu erməni namussuzlar, vicdansızlar, hələ bir məhkəməyə də müraciət edirlər”.



Q.Hüseynli bildirdi ki, 44 günlük Vətən Müharibəsi dövründə bir dənə də olsun erməni mülki insanın burnu belə qanamayıb: “Onlar İsgəndər tipli raketlərdən Azərbaycanın şəhər və qəsəbələrinə qarşı atəş açıblar. 2 dəfə Gəncəyə, 2 dəfə də Bərdəyə açılıb və 100-dən çox dinc əhalini, müharibə ilə ələqəsi olmayan adamı öldürüblər. 1000-ə yaxın insan isə ağır bədən xəsarəti alıb, yüzlərlə ev dağıdılıb. Onlar vicdanlarına “sus” deyib hər cür yalanı danışmağı bacarırlarsa, biz olan həqiqətləri hələ ki, dünya ictimai rəyinə çatdıra və onları inandıra bilməmişik. Yaxşı ki, xarici ölkələrdən 5-6 jurnalist gəldi və erməni vəhşiliklərinin hamısını gördü, çəkdi apardı və göstərdi. Biz ermənin bir qarış torpağını işğal etmişik və ya bir nəfər erməni mülki əhalisinin burnunu qanatmışıq? Yox. Bu, milli azadlıq müharibəsi idi, özü də işğalçıya qarşı. İşğalçı ilə necə davranılmalıdır? İşğalçı ilə işğalçı kimi davranırlar. Hələ bütün bunlara baxmayaraq, yenə də Azərbaycan tərəfi əsirlərin hamının hamıya prinsip üzrə qaytarır. Azərbaycanda 62 erməni terrorçusu var ki, onlar ərazilərimizə, ordu hissəsinə hücum edərək 4 nəfərin qətlinə bais olublar. Onları həbs edərək həbsxanada saxlayırıq və onlarla da normal şəkildə davranılır. Onlar terrorçudurlar və cəzalarını da alacaqlar. Bir sözlə, ermənilər bütün cinayət əməllərinə görə, cavab verməli olacaqlar”.

***Gülyana***

# “Nar” sosial izolyasiya dövründə təhsilə dəstək olmağa davam edir




Ölkədə təhsilin inkişafına xüsusi önəm verən “Nar” pandemiya dövründə də alternativ kanallarla təhsilinə davam edən tələbə və şagirdlərə öz dəstəyini göstərir. Belə ki, mobil operator Azərbaycan Respublikası Təhsil Nazirliyinin xüsusi layihəsi olan və sosial izolyasiya dövründə internetə çıxışı məhdud olan şagirdlər üçün TV üzərindən canlı dərslər yayımlayan “Dərs vaxtı” proqramını rabitə dəstəyi ilə təmin edir.

Proqramda məktəbdə keçirilən bütün fənlərin televersiyası nümayiş olunur və teledərslər şagirdlərə ölkənin istənilən yerindən ən təcrübəli müəllimlərin izahı ilə mövzuları öyrənmək üçün unikal imkan yaradır. Dərsləri həftəiçi hər gün “Mədəniyyət” və “ARB Günəş” telekanallarında izləmək mümkündür. Gündəlik dərs cədvəli ilə burada tanış ola bilərsiniz. Xatırladaq ki, “Nar” pandemiya dövründə təhsilin davamlılığına dəstək məqsədilə sərfəli “TƏHSİL+” internet paketini təqdim edib ki, bu da şagird və tələbələrin, eləcə də müəllimlərin onlayn dərslərə daha rahatlıqla qoşula bilməsinə imkan yaradır.

# 162 yeni yoluxma faktı qeydə alınıb, 4 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 162 yeni yoluxma faktı qeydə alınıb, 361 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.




İndiyədək ölkədə ümumilikdə 230 617 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 224 168 nəfər müalicə olunaraq sağalıb, 3 145 nəfər vəfat edib, aktiv xəstə sayı 3 304 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 198, ötən müddət ərzində isə ümumilikdə 2 426 945 test aparılıb.

# Prezident sözünü ünvanlı və qətiyyətlə deyir

***Məhz Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə, son 17 ildə özünü dəfələrlə isbatlayıb. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməmiz yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır.***



ZƏRİFƏ QULİYEVA,
YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü

Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

## Sözünə, vədinə sadiq olan xalqın Prezidenti

Bəli, 17 il öncə deyilənlər bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 17 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət Qələbə Zəfərimizə nail olduq!.

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

## Azərbaycan Prezidenti İlham Əliyev son 17 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir!

Bəli, bu həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Ancaq təəsüf doğuran odur ki, hələ də bəzi məmurlar şəxsi ambisiyalarından əl çəkməyərək çirkin əməllərə əl atır, işğaldan azad olunan torpaqlarda dövlət başçısının dediyi kimi: "Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir".

## Prezident İlham Əliyev: "Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışından sonra bu barədə Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bir daha məmurlara xəbərdarlıq etdi. Bildirdi ki, məmurların bu özbaşınalığı nə birincidir, nə də sonuncu: "Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir. Ona görə burada subardinasiya olmalıdır. Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özünə hansısa bir ofis, yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır".

Ən əsası isə, İlham Əliyevin prezidentlik fəaliyyətinin 17 ili Xalq-İqtidar birliyindən qaynaqlanan inam və etibar üzərində bərqərar olub, neçə-neçə uğurlara imza atılıb, 44 gün ərzində 30 illik həsrətə son qoyaraq Qarabağı Azərbaycana qovuşdurub. Elə müsahibə zamanı bunu bir daha deyən Qalib Prezidentimiz bildirib ki, işğaldan azad olunan torpaqlarımızda bütün işlər ardıcıllıqla aparılır: "Mən bu ardıcıllıq haqqında Azərbaycan xalqına dəfələrlə demişəm ki, biz hansı işləri görəcəyik, insanlar da bilsinlər. İlk növbədə, keçmiş məcburi köçkünlər, nə vaxt qayıda bilərlər o torpaqlara? Birinci, minalardan təmizləmə. Bu, böyük bir prosesdir. Ermənilər bizə mina sahələrinin xəritələrini vermirlər. Ona görə indi partlayışlar da tez-tez olur. Biz indi Minatəmizləmə Agentliyini yenidən formalaşdırırıq və onun fəaliyyəti daha səmərəli olacaq. Ancaq bu, müəyyən vaxt aparacaq. Mina təmizləməklə əlaqədar işlər, əlbəttə ki, başa çatmalıdır. Ondan sonra ziyanın qiymətləndirilməsi. Əgər biz ziyanın qiymətləndirilməsini etməsək, sabah təzminat davasında da uğur qazana bilmərik. Ona görə də, ilk növbədə, yerli qurumlar dağıdılmış bütün evlərin pasportlaşdırılmasını aparmalıdır".

Dövlət başçısı bir daha bildirib ki, bu işlərin görülməsi üçün zaman tələb edir və ucuz populyarlıq dalınca qaçanların axırı isə pis olur: "Eyni zamanda, hər şey planlı şəkildə olmalıdır. Yoxsa biri oradan durub deyəcək ki, mən burada bunu tikəcəyəm, biri oradan duracaq ki, mən bunu. Kimsən sən? Sən get öz işinlə məşğul ol. Yenə də deyirəm, ucuz populyarlıq dalınca qaçanların axırı pis olur, bu, birincisi. İkincisi, qayda-qanun var olmalıdır. Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq".

## "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm!"

Görünür hələ də bu özbaşına məmurlar isti yerdə oturduqlarını zənn edirlər. Ancaq anlamırlar ki, dünya dövlətləri Azərbaycanın yeni tarixi Qələbə Salnaməsini 44 gün ərzində yazan və 30 illik həsrətə son qoyan Qalib Liderimiz, Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının diplomatik siyasətinə həsəd aparırlar. Belə olan halda, dövlət başçımızın müsahibə zamanı adlarını çəkdiyi məmurlara imkan vermək olarmı ki, özbaşınalıq etsinlər?

"Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm! Ona görə hər kəs otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin",-deyən dövlət başçısının bu xəbərdarlığından sonra özlərinə sığışacaqlarmı?

"İndi Mərkəzi Bank insanlara xidmət göstərib ki, orada filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin və bunun insanlara hansı xeyri dəyəcək? Heç bir. Təkcə bu, deyil. Digər qurumlar da, indi mənə müraciət etmişlər. Onların hər halda ağlı çatıb mənə müraciət etməyə və mən onlara dedim ki, gedin oturun yerinizdə", - deyən dövlətimizin başçısı onların adlarını sadalayaraq deyib: "Azəravtoyol". Onun rəhbəri mənə müraciət edib ki, icazə verin, Şuşada "Azəravtoyol" qurumunun regional mərkəzini açaq. Nə üçün? Yol çəkmək lazımdır, get, yol çək. Heç kim öz hesabına yol çəkmir, dövlət büdcə ayırır. Şuşada "Azəravtoyol"un regional mərkəzinin nə işi var? İstəyir ki, özü üçün şərait yaratsın, getsin o torpağı zəbt etsin, özü üçün iqamətgah tikdirsin, onu hasara alsın, bir qarovulçu qoysun və bəli, oraya gedəndə otursun orada necə deyərlər, təbiəti seyr etsin. AZAL. Onun da rəhbəri mənə müraciət etmişdir ki, AZAL-ın hansısa qurumunu Şuşada yaratmaq istəyirlər. Bu, prinsipcə absurddur. Ona da lazımi sözləri demişəm ki, get otur yerində. Ondan sonra Dövlət Gömrük Komitəsi Şuşada Qarabağ Regional Mərkəzinin yaradılması ilə bağlı müraciət edib. Şuşada sərhəd var ki, gömrüyün regional mərkəzi olsun?

Bilirsiniz, bu adamların beyninə belə ziyanlı fikirlər gəlir və onlar da bunu tələffüz edirlər. Siyahı davam edir hələ. Fövqəladə Hallar Nazirliyi. Nazir mənə müraciət edib ki, icazə verin, orada biz Fövqəladə Hallar Nazirliyinin Qarabağ regional mərkəzini yaradaq, Şuşa şəhərində. Yenə də eyni məqsədlə, yenə də torpaq, hələ ki, orada indi heç kim yoxdur, yenə də hasar, yenə də nə bilim tikanlı məftil, iqamətgah. Dövlət Sərhəd Xidməti. Bu təklifi indi desəm yəqin ki, mənim kimi Azərbaycan xalqı da güləcək. Xidmətin rəisi mənə zəng edib deyir ki, icazə verin, biz sərhəd xidmətinin Şuşa zastavasını da yaradaq. Dedim ki, a kişi Şuşada sərhəd var? Deyin də mənə Şuşada sərhəd var, yoxsa yox? Deyir yoxdur. Deyirəm bəs, nə zastava yaradırsan? İndi bizim o boyda sərhədimiz yaranıb, ta şimaldan cənuba qədər, Kəlbəcərdən Cəbrayıla qədər, Ermənistanla sərhəd. Cəbrayıl rayonunda İranla sərhəd, get orada yarat da. Şuşada nə işin var sənin?! Yenə də gəlim, oturum, yerləşim, iqamətgah qurum, hamısı da dövlət hesabına, hamısı dövlət hesabına. Burada mənim bir rezidensiyam olsun. Mən bəzən bu şeyləri demirəm vətəndaşlara ki, onları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma mənim də artıq səbrim tükənir və deyirəm ki, vətəndaşlar da bilsinlər, bu məmurlar da bilsinlər. Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar".

Bəli, bu gün Azərbaycan xalqı bir daha gördü ki, Azərbaycan Prezidenti daima xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır. Dövlət başçımızın dediyi kimi: "Mən bu ardıcıllıq haqqında Azərbaycan xalqına dəfələrlə demişəm ki, biz hansı işləri görəcəyik, insanlar da bilsinlər".

## Pekin Xarici Dillər Universitetinin tələbələri AZƏRTAC-da işləmək arzusundadır




Yüzdən çox xarici dilin tədris olunduğu Pekin Xarici Dillər Universitetində (PXDU) Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələr AZƏRTAC-da təcrübə keçəcəklər. Onlar gələcəkdə agentliyimizdə Çin dilinə tərcüməçi kimi işləməyi arzuladıqlarını da bildirirlər.

Razılaşmaya əsasən, PXDU-nun tələbələri təcrübə zamanı AZƏRTAC-ın Azərbaycan dilində yaydığı xəbərlərinin Çin dilinə tərcüməsində iştirak edəcəklər. Tələbələr bununla Azərbaycan dili üzrə biliklərini təkmilləşdirməklə yanaşı, ölkəmizin müasir inkişafı, xalqımızın zəngin mədəniyyəti barədə bilgilər əldə edəcəklər. Bu da onların hazırlıqlı Azərbaycanşünas kadrlar kimi yetişmələrinə kömək göstərəcək. Bundan başqa, PXDU-nun Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələri AZƏRTAC-ın Çin Xalq Respublikasındakı müxbir məntəqəsi ilə də yaxından əməkdaşlıq edəcəklər. Onların agentliyimizlə əməkdaşlığı sertifikatlaşdırılacaq.

# Leyla Yunus riyakarlığı, qərəzliyi: “siyasi məhbus” reketçiliyi



### Yaxud 44 gün ərzində ermənilər dinc əhalimizi qətlə yetirməsilə bağlı niyə siyahı tutmurdu?

Çünki Leyla Yunus üçün əsas “pul qazanmaqdır”. Məhz bu səbəbdən də yenə də başlayıb “siyasi məhbus” reketçiliyinə və elə tərtib etdiyi siyahıda da rüşvətə, reketçiliyə görə həbs edilənlərdən tutmuş koronavirus infeksiyasını qəsdən yaymaqda ittiham olunanlara qədər var. Budur, Leyla Yunusun erməniliyi. Başqa cür də ola bilməz. Çünki illərdən bəri “demokratiya, insan hüququ” desə də, demokratiyanın nə olduğunu hələ də anlamayan Leyla Yunus üçün Vətən məfhumu yoxdur. Onun hikkəsi, qisasçılıq hissləri aman vermir ki, ədalətli olsun. Ona görə ildə azı iki dəfə kimsə tapmayanda terrorçuları, vətənə xəyanətdə ittiham edilənləri siyahısına salaraq onların işində siyasi motiv eşələyir. Bu gün belələri nə qədər ciddi-cəhdlər göstərsələr də, Leyla-Arif yunuslar tarixdə satqın kimi qalacaqlar. Çünki ermənipərəst Leyla-Arif “hüquq müdafiəçiləri” hara, necə, nə cür və hansı üsulla manipulyasiyalar etmələrinə rəğmən, qaçınılmaz sübutdur ki, ilk gündən Azərbaycan xalqına düşmən münasibəti göstərib, beynəlxalq ictimaiyyətdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmağa çalışıblar. Çünki azərbaycanın hər bir uğuru, qələbəsi onların erməni iyi vermiş cəmdəklərindən elə qoxuyur ki, lap donuz iyi verir. Düşmən Ermənistan mətbuatı da üfunətli bu virusları daim Leyla Yunusu müdafiə edir. O da təsadüfi deyil ki, Leyla Yunus çox primitiv, hətta plagiat şəkildə sovet hakimiyyəti dövründə tanınmış dissidentlərin (Deyək ki, Soljenitsının - R.H.) dəst xəttini təkrarlamağa, özünü onlarla bir cərgəyə qoymağa çalışır. Amma bu da nəticəsiz qalır. Çünki Azərbaycan ictimaiyyəti, sağlam düşüncəli insanlar Leyla və Arif Yunusların qaranlıq əməlləri barədə kifayət qədər məlumatlıdır və heç bir halda onların ermənipərəst fəaliyyətinə bəraət qazandıra bilməz. Haqq qazandıranların isə azərbaycançılıq faktoruna nə qədər ziyan vuranlar olduğunu demək, düşünmək kifayətdir.

### Təpədən-dırnağadək daşnak ruhuna xas Vətən xaini

Göründüyü kimi, həyasızlığı ilə özünü gündəmdə saxlayan, Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən, Azərbaycan dövlətinin humanistlik göstərərək azadlığa buraxdığı “siyasi məhbus” alverçisi Leyla və Arif Yunusların bu gün Azərbaycana qarşı hər cür böhtanlarına dəstək olması onlar üçün “göydəndüşmədir”. Və bir məqamı da untmampaq lazımdır ki, şərəfini, ləyaqətini maddiyyətə satan, ermənilərlə iş birliyini gizlətməyən bu o L.Yunusdur ki, Yunus-Barseqyanın milli mənsubiyyətini bildirən pasportunda “azərbaycanlı” yazılsa da, bu erməni “gəlini” təpədən-dırnağadək daşnak ruhuna xas Vətən xaini olduğunu sübut edən dəlillərdən yayınmağa çalışsa da, fakt faktlığında qalır.

Bu yerdə sual yaranır: Leyla Yunus kimilərin Azərbaycan dövlətinə və xalqına bu qədər kini, küdürəti və nifrəti nədən irəli gəlir? Elə fikirləşir ki, fürsətdir, bu vəziyyətdən təzyiq kimi istifadə etmək lazımdır. Qarabağ zəfərindən sonra beynəlxalq “Dostluq” sazişi, ardınca Leyla Yunusun siyasi məhbus siyahısı. Xaricdə yaşayan Leyla Yunus pul qazanmaq üçün ancaq bu yolla gedə bilər - “siyasi məhbus” reketçiliyi ilə yenə köhnə fəaliyyətini bərpa etməlidir. Və bu gün sosial şəbəkələrdə “Azərbaycan siyasi məhbuslarına azadlıq uğrunda” adlı, necə deyərlər göydəndüşmə “təşkilatda” guya ölkəmizdə 146 nəfər “siyasi məhbusun” olduğunu yayıb.

O zaman maraqlıdır ki, ölkəmiz 44 günlük müharibə ərzində ermənilər dinc əhalimizi qətlə yetirməsilə bağlı niyə siyahı tutmurdu? İnanırıq ki, bu gün iki dövlət - Azərbaycan-Türkmənistanla bağlanan “Dostluq” adlanan zəfər sazişilə də bağlı Leyla Yunusun yenə də saxta bir siyahısı meydana çıxması heç də təəccüb doğurmayacaq. Budur, Leyla-Arif yunusların xisləti, riyakarlığı, erməniliyi.

Ümumiyyətlə, bir kəsdə ki, Vətən sevgisi yoxdur, ondan hər şey gözləmək olar. Daim xarici anti-Azərbaycan qüvvələrin maliyyələşdirdiyi layihələrin icrası ilə yalançı “siyasi məhbus” siyahıları hazırlayaraq, dövlətin beynəlxalq nüfuzuna kölgə salmaq bu satqının qanındadır. Və bununla “siyasi məhbus” alverçisinin, guya Azərbaycan xalqına canıyananlıq etmək cəhdləri riyakarlıqdan, satqınlıqdan başqa bir şey deyildir və təpədən-dırnağadək daşnak ruhuna xas, “siyasi məhbus” alverçisi Leyla-Arif Yunuslar, eyni ilə Xədicə İsmayılov, Rauf Mirqədimov kimilər satılıb və satmaqa adət ediblər. Və bu gün həyasızcasına Leyla Yunus “bizim adımızı tarixdən silmək mümkün olmayacaq” tipli bəyanatlar verməklə anlamır ki, onların adları Azərbaycanın şanlı tarixində Vətənə xəyanətin simvolu kimi qalacaq. Ona görə ki, bu “tarix” yalnız şərdən, böhtandan, xəyanətdən və cəmiyyətə vurulmuş qara ləkədən ibarətdir.

Bu gün isə, Azərbaycanın yeni Şanlı Qələbə Tarixi - Zəfər salnaməsinin şanlı 44 günü yazıldı. Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 28 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Bu bəyanat Ermənistanın kapitulyasiyasıdır.

Və bu gün Leyla-Arif Yunuslar, Xədicələr, Rauf Mirqədimovlar onu da bilməlidir ki, nə çıxardığı kitab, nə dəstək olduğu AŞPA-nının “siyasi məhbus” oyununa dəstək olmaqla heç nəyə nai olmayacaq. Çünki Azərbaycanın yeni şanlı zəfər tarixini Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi!

Belə qərəzləri yaradan məxluqlar, özləri insanlıqdan kənar olan, mənşələri bilinməyən satqınlara artıq qətiyyən yol verilməməli, dövlətimizə, xalqımıza xəyanət edənlər ən sərt şəkildə cəzalandırılmalıdırlar!

***Rəfiqə HÜSEYNOVA***

# Əli Kərimlinin “kadrları” indi onun özünü söyürlər

### AXCP sədrinin sosial şəbəkədəki təhqir qrupları ona qarşı dönük çıxırlar

Sirr deyil ki, bügünün özündə də xarici ölkələrdə “siyasi mühacir” saxtakarlıqları altında oturub Azərbaycan dövlətinə qarşı qərəzli, təhqir xarakterli fəaliyyət göstərənlər necə deyərlər, iş başındadırlar. Lakin o da sirr deyil ki, bu kimi ünsürlərin bir-birləri ilə də münasibətləri heç də hamar deyil və zaman-zaman Qərbdəki ağalarından aldıqları sifarişlri bölüşə bilmədikləri üçün özləri-özləri ilə söyüş savaşına girirlər. Bu kimi hallar xüsusilə AXCP sədri Əli Kərimlinin adamları ilə digər müxalifətyönlü şəxslər arasında baş verir.

Bu arada daha bir bənzər fakt ortaya çıxıb və SİA-nın əldə etdiyi məlumata görə, bu dəfəki savaş YouTube sosial şəbəkəsində kanal açaraq apardıqları şər-böhtan kampaniyasından daha çox gəlir əldə etmək marağı ilə əlaqəlidir. Söyüş, qərəz kimi vasitələrdən kirli qazanclar əldə etməyə cəhdlər göstərən həmin ünsürlər indi həmin vasitəni özlərinə qarşı istifadə etməkdədirlər.

### Manaf Cəlilzadə: “Tüpürüm Əli Kərimliyə də, onun müxalifətinə də”

Beləliklə, məlum olub ki, “diktator tv” adı altında virtual fəaliyyət göstərən Manaf Cəlilazadə sosial şəbəkədən gəlir əldə etmək məqsədi ilə hətta uzun zamanlar pişvazında təzim edərək dayandığı AXCP sədri Əli Kərimlini, eləcə də öz yaxın qohum-əqrabasını da söyüş hədəfinə alıb. Lakin bu ünsürün daha hansı kirli, ürəkbulandırıcı əməllərlə bağlı hərəkətlərə rəvac verməsi barədə yazının sonunda təqdim edəcəyimiz screen-shot-lar da açıq-aydın göstərməkdədir.




Məlum olub ki, M.Cəlilzadənin onunla əməkdaşlıq edən şəxslərdən biri ilə yazışması üzə çıxıb. Sözügedən yazışmada isə Cəlilzadənin özünə yeni qurban seçməsi görünməkdədir. O, qarşı tərəfə müxtəlif vədlər verir və ona deyir ki, “Mənim Əli Kərimli haqda yazdıqlarımı sil, sonra da hamıya de ki, o yazılar feykdir, özün düzəldib yaymısan”. Qarşı tərəf “Camaat inanmaz axı” deyə etiraz edir. M.Cəlilzadə isə sosial şəbəkə istifadəçilərini təhqir edərək “Camaat qoyundur, hər şeyə inanır. Tüpürüm Əli Kərimliyə də, onun müxalifətinə də. Onlar da qoyundurlar. Sən dediklərimi et, səni “diktator tv”yə moderator edəcəm” deyə reaksiya verir. Bunun arxasınca isə sözügedən YouTube-dəki kanalında fəaliyyət göstərən digər moderatorları təhqir hədəfinə alır. Mesajlaşmanın sonunda isə qarşı tərəf



onunla razılaşır.

### AXCP sədrinə dəyən bumeranq zərbəsi

Maraqlıdır ki, “siyasi mühacir” adı altında saxtakarlıq fəaliyyətləri göstərən bu kimi ünsürlər sonradan həyasızcasına üzə çıxır, cəmiyyət arasında fikirlər bildirirlər. Necə deyərlər, utanmasan oynamağa nə var ki...

Görünür, uzun müddət AXCP sədri Əli Kərimlinin təsiri altında qalan bu kimi həyatları zəhərlənmiş “gənclər” indi anti-zəhər vasitələrinə möhtacdırlar. Ən maraqlısı isə budur ki, həyatın bumeranq olması da özünü sübuta yetirir. Vaxtilə hakimiyyəti, dövləti, xalqı təhqirə məruz qoydyran Əli Kərimlinin özü indi tələbəsi tərəfindən söyüşlərə, küfrlərə məruz qalmaqdadır.

Fəqət, fakt budur ki, belələri üçün müqəddəs heç nə yoxdur və onlar hətta özləri-özlərini təhqir etsələr belə, yenə də xəyanətkar olaraq qalmaqdadırlar. Çünki istər bu adıçəkilən şəxs olsun, istərsə də digər “siyasi mühariclər” olsun - onların hər biri Azərbaycan qanunları qarşısında məsuliyyət daşıyırlar və gec, ya da tez qanunun tələbləri qarşısında mühakimə olunacaqlar. Bax, onda Əli Kərimlinin özü tərəfindən hazırladığı söyüş “kadrlarına” görə cavab verməli olacaq...

***Rövşən RƏSULOV***

### Yerkramas İM: “Soros Ermənistanda 700 nəfərlik silahlı dəstə yaradır”

Bugünlərdə Ermənistanın Yerkramas İnformasiya Mərkəzinin sosial şəbəkə səhifəsində diqqət çəkən məlumat paylaşılıb. SİA xəbər verir ki, həmin məlumata əsasən, hakimiyyət Sorosun dəstəyi ilə silahlı dəstələr yaratmağı planlaşdırıb. “Ermənistan sorosçuları 700 nəfərdən ibarət silahlı dəstə yaradır və onlar qrup şəklində fəaliyyət göstərəcəklər”, deyə bildirilən məlumatdan belə bir nəticə çıxarmaq olar ki, Ermənistanda mövcud vəziyyət iqtidarın xeyrinə deyil və baş nazir Nikol Paşinyan növbəti dəfə onu hakimiyyətə gətirmiş Soros Fondunun dəstəyindən yararlanmaq üzrədir. Daha dəqiq desək, müharibədən sonra bir-birini əvəzləyən çoxsaylı tələb və problemlər kütləvi xalq narazılıqları ilə müşahidə edildiyi mövcud iqtidar rəsmi olaraq polis və hərbi gücdən tam şəkildə istifadə edə bilmir. Çox yəqin ki, Paşinyan sorosçulardan ibarət gizli silahlı qruplar yaradaraq onları müxaliflərə qarşı təzyiq aləti qismində istifadə etməyi planlaşdırır.




Xatırladaq ki, Ermənistandakı revanşist qüvvələr sosial şəbəkələrdə çağırışlar edərək, hakimiyyəti güc yolu ilə devirməyə və növbədənkənar seçkilərin keçirilməsinə yol verməməyə səsləyirlər. Görünür, bu çağırışlardan sonra hakimiyyət yeganə xilas yolunu dəstəkçilərini silahlandırmaqda axtarır və bu baş verərsə, ölkədaxili vəziyyətin çərçivədən çıxacağını, vətəndaş müharibəsi ilə nəticələnəcəyini proqnozlaşdırmaq olar.

***Rövşən RƏSULOV***

# Rəzil qadın...

**Yaxud Gültəkin Hacıbəyli üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!**



Bəzən baş verən hadisələrə münasibət bildirmirsən, "səbrli ol" -deyirsən. Ancaq bir də görürüsən ki, dövlətinin, xalqınnı ünvanına elə bir sözlər, böhtanlar deyilir ki, bu yerdə sakit dayana bilmirsən. Xüsusilə də, son günlər sosial şəbəkələrdə "Milli Şuran"ın qeybətxana şousunda rəzil və mənəviyyatsız qadın olan Gültəkin Hacıbəylinin hər dəfə Azərbaycannı uğurlarına kölgə salmaqdan həzz alır. Dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olan, AXCP sədri Əli Kərimlinin "danışan dili" olan Gültəkin Hacıbəylinin baş verən bu hadisələrdən cuşə gələrək, ingilis bayrağı kimi sağasola dönən, ata qatili olan faşist xislətli Erməni dövlətinə dəstək olan "vətənşüvan", satqın Sevinc Osmanqızının "TV"-də gecə-gündüz həqiqətdən uzaq, şərböhtan dolu çıxışlar etməkdən artıq çənəsi də çıxıb.

**İkiüzlü, riyakar, reneqat Gültəkin Hacıbəyli həyasızlıq bu qədər...**

44 gün ərzində 30 ildən bəri Ermənistanın işğalı altında qalan ərazilərimizin işğaldan azad edilməsi, Azərbaycan Prezidentinin nüfuzunun artması, Azərbaycanın Türkiyə, Pakistan və islam ölkələri ilə, Rusiya və bir çox Qərb ölkələri, o cümlədən Qoşulmama Hərakatı üzvləri olan dövlətlərlə münasibətlərinin daha da güclənməsi və bu siyasətin sayəsində Azərbaycana beynəlxalq dəstəyin çoxalması, iqtidarın mövqeyinin artması və güclənməsi, Dağlıq Qarabağ problemi kimi çətin və qəliz bir məsələnin məhz bu iqtidarın hakimiyyəti dövründə həll edilməsi, Qarabağda abadlıq və quruculuq işlərinə start verilməsi və s. digər məsələlər AXCP-"Milli Şura" çox narahat edir. Çünki bu cinayətkarlar məkanıda Azərbaycan xalqına xəyanətlər edənlər toplaşaraq, 44 günlük Vətən müharibəsi zamanı bu satqınlar düşmənin dəyirmanına su tökməklə "qürur" duyurdular. Bu qədər də alçaqlıq, əxlaqsızlıq, nankorluq olarmı? Xüsusən də, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və digər əxlaqsızların, satqınların və nəhayət, cinayətkarların bədəli böyük olacaq! Həm xalq, həm də qanun qarşısında!

**Ən maraqlısı isə ən çox rəzil, ikiüzlü qadın Gültəkin Hacıbəyli...**

Əli hər şeydən üzülən ikiüzlü, riyakar, rəzil, sürüşkən, xain, anormal Gültəkiin Hacıbəyli indi də başlayıb şəhidlərin "haqqını müdafiə etməyə". Deyirəm bu qədər də abırsızlıq olar? Deputat olduğun zamanlarda sən deyildinmi şəhid ailələrin, əlillərin haqqını tapdalayan? Yaxud, qaçqın və əlillərin haqqına girənin "ədalətdən" danışmağa nə haqqın var? Ölü qurum "Milli Şura"nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəylinin sosial şəbəkələrdən Azərbaycanın Silahlı Qüvvələri haqqında irəli sürdüyü böhtan dolu və düşmən dəyirmanına su tökən saxta fikirləri, Ordumuza qarşı ağlına gələn fikirləri - guya Azərbaycan əsgərlərinin səngərlərdə əliboş (?!-R.N.) dayandığı və Azərbaycan Ordusunun silah-sursatın "sınıq və yararsız" olduğu haqda sərsəm çıxış edərək ermənilərin sevimlisinə çevrilib... Budur, G.Hacıbəyli xəyanəti, əxlaqsızlığı, cinayətkarlığı.

G.Hacıbəyli bu gün ermənixislətli Sevinc Osmanqızının "TV"sində "haqq-ədalətdən" danışaraq bildirir ki, "öz şəhidinə sahib çıxmaq Azərbaycan dövlətinin borcudur". Sözsüz ki, belə bir söz var: "abırsızın abrı olmaz". Çünki bu fərd hələ deputat olduğu dövrlərdə onlarla qaçqının və əlillərin, şəhid ailələrinin haqqına girərək, dövlətin onlara məxsus aid etdiyi torpaqlara güc yolu ilə sahib olurdu. Belə ki, G.Hacıbəylinin 2008-ci ildə Mehdiabad bələdiyyəsindən şantaj və həyasızlıq vasitəsi ilə 12 sot torpağı "Əlillər" massivindən zor gücü ilə alaraq, uca səslə deyridiniz ki, "Mən millət vəkiliyəm",-deyə bağırdığınızı xatırlayırsan?. Xatırlamazsan, çünki sən o qədər səviyyəsiz, nankorsan ki.... Hər sifətdə olduğun həmişə görünüb. Bu gün də müdafiə etdiyin Xədicə İsmayılı, Leyla Yunusu, İntiqam Əliyevi, Tofiq Yaqublu, Əli Kərimli və Cəmil Həsənlini necə ittiham edirdin?! Bu adamları xalq düşməni adlandırırdın... Deyə bilərsənmi, o zaman daha səmimi idin, yoxsa indi?! Bu sənin sifətinə baxdıqda aydın görünür- yazıqlar sənə, rəzil qadın!.

**Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır**

Çünki Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Xüsusilə, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Həmçinin, əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin davamlı qayğısının bariz nümunəsidir. Bütün deyilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası banklar tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin ediblər. Eyni zamanda, şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Bank olmayan kredit təşkilatları da bu prosesdən kənarda qalmayıb və onlar da qeyd olunmuş əhali qrupları üzrə kreditlərin tam silinməsinin təmin edilməsi, həmçinin, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna əsasən, dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alan şəhid ailələrinin üzvləri təhsil haqqı ödəməkdən azad olunmasıdır. Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımların atılmasını, sosial inkişafda ciddi irəliləyişləri təmin edir. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı da ildən-ilə uğurla davam etdirilir və əhəmiyyətli şəkildə minnətdarlıqlarını ifadə ediblər genişləndirilir.

Bütün bunlar göstərir ki, Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır.

**Bir medalın iki üzü...**

G.Hacıbəylinin sifəti budur - hər sifətdə ola bilir. Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, onun üçün Vətən, ailə nə olduğunu bilməyən mənəviyyatsız olub. sürüş indən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - nankorluq. Məhz bütün bunlardan sonra G.Hacıbəyli ədalətdən danışmağa mənəvi haqqın yoxdur. Nə Azərbaycan barədə, nə də adicə insanlıq ətrafında. Çünki sən G.Hacıbəyli atdığın iyrənc, mənfur addımların hər biri xəyanətkarlıq, milli satqınçılıq olmaqla yanaşı, həm də qeyri-insanidir. Bu səbəbdən, bələlərinin yeri cəmiyyət arasında ola bilməz!

Bir sözlə, təpədən-dırnağa qədər bataqlığa batmış "Milli Şura"nın dolanbaclarında veyillənən, riyakarlığı, satqınlığı və xəbisliyi ilə tanınan, hər addımda AXCP sədri Əli Kərimlinin tapşırıq və sifarişlərini icra edən G.Hacıbəyli kimilərin fəaliyyətini cəmiyyətimiz ikrahla qarşılayır və birmənalı olaraq rədd edir. Və törətdiyi bütün çirkli əməllərə görə əlahəzrət ədalət qarşısında cavab verəcək.

***Rəfiqə HÜSEYNOVA***



## KORONAVİRUS CANAVARLARI

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Bugünlərdə bir həkimin vatsap vasitəsi ilə əhali arasında təlaş yaradan səs yazısı yayıldı. Həkimin koronavirusun yeni ştammının bu dəfə uşaqlar arasında da ölüm hallarına yol açacağı barədə bilərəkdən (yaxud bilməyərəkdən-R.) fikirlər səsləndirməsi, hətta xəstəxanalarda yoluxacağı gözlənilən uşaqlar üçün əvvəlcədən çarpayıların hazırlanması ilə bağlı məlumat verməsi, həqiqətən də, əhalidə qorxu hissləri əmələ gətirdi. Söz yox ki, bu xəbər sosial şəbəkələrdə də gözlənildiyi kimi, ildırım sürəti ilə yayıldı. Etiraf edək ki, belə xarakterli məlumatlar çox sürətlə ictimailəşir və insanlar da necə deyərlər, bu cür məsələlərə sanki "acdırlar". Pandemiya yayılandan hazırkı zamana qədər yayılan səs yazıları, videogörüntülər, fotolar bəlkə də yüz minlərlədir və onların əksəriyyəti öz təsdiqini tapmayıb.***

Xatırlayırsınızsa, koronavirusun ilk yoluxma halları Çinin Uhan şəhərində üzə çıxarkən sosial şəbəkələrdə yerləşdiyi zaman anidən yıxılıb-ölən insanlar, qorxu filimlərində olduğu kimi, dəhşətli ölüm anını əsk etdirən görüntülər və s. saxta informasiyalar əlindən tərpənmək olmurdu. Məhz həmin vaxtlardan başlayaraq bizdə - Azərbaycanda da bu tipli səs yazıları, videogörüntülər yayıldı, insanlar uzun müddət dəhşətli təlaşlar içində qovruldu, ailəsinin, övladlarının həyatlarının görüntülərdəki səhnələri yaşamamaları üçün daha nələrə əl atmadılar ki...

Sonradan bu tipli məsələlər mediaya da sızdı. Saytlarda, eləcə də onların sosial şəbəkə səhifələrində yoxlanılmamış, kökü olmayan informasiyalar yer almağa başladı. Elə götürək bugünlərdə teleqram səhifələrinin birində verilən məlumata. Sən demə, Bill Qeyts (sən demə o, həm də koronavirus infeksiyasının "yaradıcısı", virusa qarşı vurulan, peyvəndlərin daxilinə "yerləşdirilən" və "insanları idarə edən" (???) "çiplərin" ideoloquymuş-R.) haradasa, nə vaxtsa deyib ki, növbəti və sayı itirilmiş pandemiya dalğası bəşəriyyəti daha ağır fəsadlara, ölümlərə və daha nələrə və nələrə düçar edəcək və s. Əlbəttə ki, bu xəbərin nə istinad mənbəsi, nə də digər hər hansı sübutedici faktı yox idi. Sadəcə, Bill Qeytsin şəkli və altında da sözügedən "dəhşətli xəbər", vəssəlam!

Bu xəbəri oxuyan sadə, informasiya qanunları barədə hətta cüzi məlumatı olmayan insanlar haradan bilsinlər ki, bütün bunlar həm də İP (yəni, baxış sayı) qazanmaq üçün oynanılan oyunbazlıqdır və başqa heç nə deyil?! Və bu mənbəsiz xəbəri yayan şəxs(lər) də bəlkə bilmirlər ki, nə qədər ciddi qanunsuzluqlara yol verirlər. Üstəlik, insanların hisslərinə də mənfi təsir və müdaxilə edirlər. Halbuki, koronavirusa yoluxma faktorlarından biri də, məhz stress və qorxu hissidir, bunu dünyanın bütün aparıcı elmi-tibbi araşdırmaçıları da etiraf ediblər. Deməli, belə hesab etmək olar ki, yalan, həyəcanlı, qorxu yaradan məlumatları ictimailəşdirən şəxslər açıq-aşkar cinayətə yol verirlər və bunun hansı nəticələrə gətirib-çıxaracağının ya fərqində deyillər, ya da fərqinə varmaq onlarlıq deyilmiş. Kimə nə olursa-olsun, təki İP-im artsın...

Məncə belələrinə bir ad vermək olar - koronavirus canavarları. Bu canavarlar əllərinə keçən belə bir ağır vəziyyətdən necə və hara gəldi istifadə edirlər, nəticəsinin necə olacağının fərqinə varmadan. Hələ nə yaxşı ki, yalan, qərəzli və insanlarda vahimə yaradan əsassız informasiyalara görə mübarizə aparılır, qanun tənzimlənir. İndi görün bu da olmasa idi, biz daha hansı aqibətləri yaşamalı olacaqdıq...

# Qadın bazarı, yaxud insan alveri niyə çiçəklənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

### Ekspertlər: Problemin kəskinləşməsində əsas faktorlar sosial problemlər və mənəvi deqradasiyadır

Normal insan cəmiyyətinin və ailə institutunun dayaqlarına, dolayısı ilə genefonda ağır zərbə vuran fahişəlik dünyanın ən köhnə peşəsi olaraq xarakterizə edilməkdədir. İnsan alverinin çiçəklənməsi üçün ən yaxşı stimul yaradan fahişəliyin tarixinin insanlığın tarixi qədər qədim olduğu bildirilir. Son vaxtlar dünyada və ölkəmizdə bu problemin aktuallaşdığını nəzərə alıb fahişəliyi fərqli mədəniyyətlərə, coğrafi ərazilərə ayırıb araşdırmağı uyğun hesab etdik.

Bəşəriyyətin ən qədim peşələrindən biri adlandırılan fahişəlik sosial təzahür olub qadınların nikahdankənar seks fəaliyyətinə deyilir. Ölkədən asılı olaraq, fahişəlik ya leqaldır (Amerika və bir çox Avropa ölkələrində), ya da hətta ölüm cəzası ilə cəzalandırılır (bəzi ərəb ölkələrində).

Bir sıra ölkələrdə isə fahişəlik dövlət tərəfindən leqal biznes fəaliyyəti siyahısına salınır, məsələn, İsveçrə, yaxud ABŞ-ın bəzi ştatlarında, Türkiyədə küçə fahişəliyi leqal deyil, lakin dövlət fahişəxanaları leqaldır.

Fahişəliyə ziddiyyətli münasibətlərin əsas səbəbləri arasında qanunsuz insan trafiki, köləlik və cinsi yolla keçən xəstəliklərdir. Son vaxtlar hər 3 istiqamətdə də problemlər kəskinləşdiyindən problem daha da aktuallaşıb.

Bir çox ölkələrdə isə (Hindistan, İran və s.) fahişələr cəmiyyətdə çox sərt təpki ilə üzləşir. Azərbaycan mentalitetində belə qadınlara yanaşma bir qədər sərt olsa da, sivil çərçivələri aşmır. İranda isə, fahişəliklə məşğul olan qadını daşlanma və ölüm cəzası gözləyir. Baxmayaraq ki, bu ölkədə siğə adlı proses vasitəsilə fahişəlik dini çərçivəyə salınıb.

### Qədim Yunanıstanda fahişə məktəbləri açılmışdı

Fahişəliyin yaranma məkanlarından ən qədimi hesab edilən Yunanıstanda bu peşəni 3 kateqoriyaya da ayırırdılar.

**1.** "Hiedodoleia" yəni "müqəddəs fahişəlik" deyilən peşə məbədlərdə reallaşdırılırdı. Məbədlərdə özünü göyün yeri mayalandırması və bərəkətləndirməsi vəzifəsini reallaşdıran müqəddəs varlıq olaraq bütün kişilərin xidmətinə təqdim edən qadınlar vardı.

**2.** İkinci qrupda ödənişli fahişə olaraq bilinən fahişələr yer alırdı. Bunlar küçə qadınları sayılırdı və pul qarşılığında istənilən şəxsə xidmət göstərirdilər. Belə qadınlara, əsasən, aşağı və orta təbəqədən müştərilər çıxırdı və onların qazancı o qədər də çox olmurdu.

**3.** Daha bir qrup fahişələr "heteira" adlandırılan və özlərini intellektual fahişə adlandıranlar idi. Bu növ fahişələr əla geyinirdilər, çox yaxşı danışırdılar və cəmiyyətin üst qatlarında qərarlaşırdılar. Onlar daha çox zənginlərlə "aşna" həyatı yaşayırdılar. Fahişələrin, ictimai həyatda zadəgan qadınlardan ayırd edilə bilmələri üçün saçlarını sarıya boyatmaları gərəkli idi.

Qədim Yunanıstanda fahişə məktəbləri açılmışdı. Bu məktəblərdə daha əvvəldən bu mövzuda təcrübəli olan yaşlı fahişələr, yeni başlayanlara gözəl geyinmə, makiyaj etmə, seksual, sevimli və cazibədar olma sənətini öyrədirdilər. Bu məktəbin məzunlarını küçə qadını adlandırmaq mümkün deyildi. Onlar yalnız elitaya xidmət göstərirdilər.

### Qədim Romada orduya xeyli fahişə daxil edirdilər

**1.** Müqəddəs fahişəlik.
**2.** Ödənişli fahişəlik.

Qədim Romada, indiki vaxtda asayiş şöbəsinin icra etdiyi vəzifəni icra edən polis təşkilatında qanuni qeyd edilmiş 32 000 fahişə vardı. Roma İmperatorluğu dövründə fahişəlik hamamlarda, meyxanalarda, bərbər dükanlarında sərbəst idi.




Roma cəmiyyətinin əxlaqının pozulması prosesi miladdan sonra 5-ci əsrdə bəzi qadağalar qoyulmaqla durdurulmağa cəhd edildi. İmperator Tedosios bəzi qanunlar qoyaraq fahişəliyi qadağan etmək üçün sanksiyalar tətbiq etdi. Sanksiyalar əsasən, qızlarına və kölələrinə fahişəlik etdirən ataları və kölə sahiblərini sürgünə göndərməkdən ibarət idi.

Qədim Romada fahişələrin hüquqları qorunur, onlara yanaşmada təhqirə yol verilmirdi. Lakin bu peşə ilə məşğul olanlar müəyyən qadağa və çərçivələr daxilində fəaliyyət göstərə bilirdilər və onların müqəddəs yerlərə daxil olmasına icazə verilmirdi. Bundan başqa, fahişələrin övladlarının yüksək dövlət vəzifələrinə təyin olunmasına yol verilmirdi.

Roma əsgərlərinə xidmət etmək üçün çox sayda fahişə orduya daxil edilmişdi və onlar hərbi səfərlərdə də əsgərləri müşayiət edirdilər. Hesab edilirdi ki, bioloji cinsi tələbatın ödənməsi əsgərlərin sağlamlığına və döyüş əzminə yaxşı təsir göstərir.

### Avropada kilsənin fahişəxana biznesi

Avropa ölkələrində dağınıq və gizlicə edilən fahişəliyi idarə altına almaq və bundan faydalanmaq üçün kilsələr hərəkətə keçdi. Bunun üçün ilkin addım kimi 1287-ci ildə Paul Katedralı Keşiş və Ruhani Məclisi, fahişələr üçün mülklər kirayəyə götürdü. 1309-cu ildə Strasburq kilsə papası gəlirini artırmaq üçün ümumi bir ev inşa etdirdi.

Fahişələr öz geyimləri ilə də fərqlənirdilər, onları fərqləndirən əlamətlər isə bunlar idi:

* Almaniyada mavi lentli sarı şlyapa geyinmək,
* Vyanada çiyininə sarı yaylıq atmaq,
* İsveçrədə kiçik qırmızı papaq geymək.

Döyüşdə davamlı yer dəyişdirən əsgərlərin cinsi ehtiyaclarını görsün deyə bəzi krallar tərəfindən fahişələr səfərlərə aparılırdı.

İngiltərədə fahişəlik sektoru təxminən 400 il boyunca Kilsənin nəzarətində idi. Kilsə rəhbərliyi bu müddətdə 18 ümumi fəhişəlik evi açdı. Çalışanların islahı və cəmiyyətə geri qazandırılması əvəzinə peşədən ayrılmaq istəyənlər ağır bir şəkildə cəzalandırılırdı. Qədim Romada olduğu kimi, fahişəliyin məşhur olduğu yerlər, əsasən, əsgərlərin sıx olduğu bölgələr hesab edilirdi.

16-cı əsr İspaniyasında fahişəliyin mərkəzi Seviliya şəhəri idi. Madriddə isə 1630-cu ildə 3000 fahişə rəsmi olaraq qeydiyyatda idi. Küçəyə çıxacaq fahişə, kimliyini göstərən paltarlar geymək məcburiyyətində idi. 1570-ci ildə II Filippin başlatdığı fahişəliklə mübarizə IV Filippin zamanında bəhrəsini verməyə başladı. 1628-ci ildə 8 illik araşdırma və izləmədən sonra, ölkədə olan 800 ümumi fahişəxana bağlandı.

### Fahişəliyin ərəbsayağı forması- siğə

Hazırda fahişəliyin yayılması xristian ölkələrində daha çox müşahidə olunur. Bu ölkələrdə sözügedən xidmət aşkar şəkildə, bəzi ölkələrdə isə qadağan olunduğuna görə gizli şəkildə inkişaf edir. İslamdan qabaq ərəblər, ictimai həyat etibarilə azad idilər, kölələr və mevali olmaq üzrə 3 sinifə ayrılırdılar. Azadların sahib olduğu hüquq və şərəfdən məhrum olan əsirlər, kölələr və nökərlərin nəsli idi. Kölələr ilə azadlar arasında orta bir sinif olan məvalilər, azad edilmiş kölələr idi.

Fahişəlik, daha çox nökərlər tərəfindən reallaşdırılırdı. Fahişəliyin idarəsi qul tacirlərinin əlində idi. Tez-tez bu məqsədlə xüsusi sərgilər keçirilirdi. Sərgidə nümayiş etdirilən qadınlar fahişəlik etmək üçün məcbur edilirdilər.

Bəzi ərəb ölkələrində geniş tətbiq edilən "mutaa", başqa sözlə, siğə, müvəqqəti nikahdır, burda tərəflərin heç bir məsuliyyəti yoxdur, siğə üçün molla da lazım deyil. Müqavilə çox sadədir: qadın deyir ki, "mən filan müddətə, filan mükafata sənə ərə gedirəm", kişi cavab verir ki, "mən qəbul edirəm". Siğənin müddəti danışıqdan asılıdır, 1 saat da ola bilər, 1 il də.

Ərəb ölkələrində çoxarvadlılığa icazə verilməsi də problemlər yaradır. Hətta bəzi şeyxlərin yüzlərlə arvadı olması faktı var. Varlı ərəb ölkələrinə son zamanlar Avropa və postsovet məkanından qadınların axını çoxalıb. Azərbaycandan da xeyli sayda qadının bu ölkələrdə fahişəliklə məşğul olduğu haqda məlumatlar var.

### Türkiyə: fahişəlik üçün münbit bazar

Bu dövdə tarixə düşmüş fahişəliyə görə ən qədim cəza hadisəsi 1540-cı ildə reallaşdırılıb. 1540-cı ildə fahişəlik edərkən tutulan qadının cinsi orqanı ülgüc ilə kəsilib. Əmri verən Qanuni Sultan Süleymanın vəzirlərindən olan Lütfü Paşa olub. Lütfü Paşa pis yola düşmüş qadınlara çox sərt davranması ilə tanınırdı.

II Səlimin dövründə, xüsusilə Eyyubdakı camaşırxanalarda sürən fahişəlik, 1567-ci ildə verilən fərman ilə sona çatdı. XVI əsr Osmanlısının fahişəlik mərkəzləri isə bunlar idi: Qala, Topxana və Eyyub .

1845-ci ildə İstanbulda Əxlaq Polisi Şöbəsi təsis edildi. Bundan sonra fahişəliklə məşğul olanlar və qadınları buna məcbur edənlər bir müddət kölgədə qaldılar.

1922-ci ildə, İstanbulda rəsmi olaraq 69 rum, 194 erməni, 124 yəhudi, 774 türk və 1000 qədər şəxsiyyəti və haralı olduğu məlum olmayan fahişə olduğu məlumdur. Rəsmi qeydə alınmayaraq fahişəlik edənlər isə daha çox idi.

1950-ci illərdən sonra Türkiyəyə xaricdən gətirilən qadınların da sayəsində fahişəlik daha da artdı. Bu tendensiya indiyədək davam etməkdədir.

Bəzi məlumatlara görə, hər il Azərbaycandan Türkiyəyə əxlaqsızlıq məqsədilə yüzlərlə qadın aparılır. Onların demək olar ki, təxminən yarısı işləmək və işlə təmin ediləcəyi barədə vədlərə inanaraq könüllü gedirlər. Türkiyəyə çatandan sonra isə şəxsiyyət sənədləri əllərindən alınır və məcburən fahişəlik etdirilir. Digərləri isə məhz bu işlə məşğul olmaq üçün könüllü gedirlər.

### Sosioloq: "Əsas səbəb mənəvi deqradasiya və yoxsulluqdur"

Fahişəlik, dolayısı ilə insan alveri mövzusu Azərbaycan üçün də ciddi problem kimi qalır. Sağlam Cəmiyyət Hərəkatının (SCH) eksperti, sosioloq İbrahim Cəfərov deyir ki, bir çox ölkələrdə qadınları fahişəliyə cəlb edən sutenyorlar cinayət məsuliyyətinə cəlb edilir. Çox təəssüf ki, bizdə lazım olan insanları cəzalandırmırlar. Cinsi istismara məruz qoyulan qadınlar əməlinə görə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq cərimə edilir. Məcburiyyətdən, ya da aldadılaraq bu yola düşən qurbanları deyil, onlardan özünə qazanc mənbəyi düzəldən insanları cinayət məsuliyyətinə cəlb etmək lazımdır.

SCH ekspertinin sözlərinə görə, cəmiyyətdə bu problemin getdikcə daha çox kəskinləşdiyi qənaəti var: "Bir neçə ay əvvəl təşkilatımızın sosial şəbəkə səhifəsində bir internet sorğusu keçirdik. Sorğuda iştirak edən 142 nəfərdən 103-ü cəmiyyətdə əxlaq kriteriyalarının dəyişməyə doğru getdiyini bildirdi, 39-u isə fahişəliyin artmasında sosial problemlərin rolunu vurğuladı. Hesab edirəm ki, hər iki faktor ciddi problemdir.

Problemin həllinə gəlincə, sosioloq hesab edir ki, həm qeyri-hökumət təşkilatları, həm də dövlət strukturları tərəfindən müxtəlif mübarizə üsulları həyata keçirilməlidir: "Adətən, bu problemin kökündə mənəvi deqradasiya, işsizlik, yoxsulluq, ailə zorakılığı, boşanmalar kimi faktorlar durur. Ən əsası da, təhsilin və hüquqi maarifləndirmənin aşağı olması".

Göründüyü kimi, fahişəliyə səbəb yaradan əsas məqamlar asan qazanc əldə etmək arzularıdır. Cəmiyyətdə mənəvi dəyərlərin, əxlaqi kriteriyaların ciddi şəkildə dəyişməsini, başqa sözlə azad cinsi münasibətlərə baxışın yumşalmasını da buraya əlavə etmək olar. Bunlar isə insan alverinə şərait yaradan əsas faktorlardır. Son nəticədə bu problem milli genefondumuz üçün ciddi təhlükə yaradır. Bu problemin həllində və ya tənzimlənməsində dövlətin xüsusi siyasəti olmalıdır.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

Səs

Son səhifə

4 fevral

# Buffon 1100-cü oyununa çıxdı



***"Yuventus"un qapıçısı Canluici Buffon karyerasında 1100-cü matçına çıxıb. Qol.az xəbər verir ki, yubiley matçı "İnter"lə ölkə kubokunun ilk yarımfinal oyununa təsadüf edib. 43 yaşlı qolkiper matça start heyətdə başlayıb.***

Qeyd edək ki, Buffon futbola "Parma"da başlayıb. 2001-ci ildə "Yuventus"a transfer olunan italiyalı qolkiper 2018/2019 mövsümünü PSJ-də keçirib və yenidən Turin klubuna qayıdıb. Buffonun 1100 oyunundan 679-u "Yuventus", 220-si "Parma", 176-sı milli komanda, 25-i PSJ-də olub.

# Kuman: "Messinin "Barselona"da qalacağına əmin deyiləm"



"Barselona"nın baş məşqçisi Ronald Kuman komandanın kapitanı Lionel Messi haqda danışıb. Nüfuzlu idman nəşri olan "The Athletic" xəbər verir ki, o, argentinalı hücumçunun Kataloniya təmsilçisindəki gələcəyinin necə olacağı ilə bağlı verilən suala cavab olaraq deyib: "Messi "Barselona"da qalacaq?" Buna əmin deyiləm. Əlbəttə, buna ümid edirəm, çünki o, hələ də əla oyunçudur və bizim üçün oyunlarda qalib gəlir. Mən ona məşq keçməyi sevirəm. Hər gün məşqdə keyfiyyətlərini görmək inanılmazdır. Uşaq vaxtı "Barselona"ya gəldi. Hələ də başqa bir klubun formasını geyinəcəyini təsəvvür etmirəm".

Qeyd edək ki, Messinin "Barselona" ilə müqaviləsi bu mövsümün sonu başa çatır.

# B12 vitamini ilə zəngin məhsullar beyinin sağlamlığını qoruyur



***B12 vitamini (kobalamin) çatışmazlığı insanı beyinin sağlamlığı ilə bağlı müxtəlif problemlərlə, məsələn, əqli yorğunluq, diqqətsizlik, yaddaşın itirilməsi ilə üzləşdirir. Beyinin sağlamlığını qorumaq üçün bu maddə ilə zəngin məhsullarla qidalanmaq lazımdır. "MedikForum.ru" xəbər verir ki, B12 vitamini öz qrupunun mühüm nümayəndəsidir.***

O, orqanizmin bir çox funksiyalarına, o cümlədən maddələr mübadiləsinə, qan dövranına, DNT sintezinə təsir göstərir. Bu vitamin beyinin inkişafında da həlledici rol oynayır. Yüksək səviyyədə B12 vitamini beyinin funksiyalarını yaxşılaşdırır, yaddaşı gücləndirir. Yetərincə B12 vitamini qəbul etmək koqnitiv pozuntular riskini, məsələn, Altsheymer xəstəliyi riskini azaldır.

Lakin orqanizm B12 vitaminini müstəqil hasil edə bilmir. Odur ki, rasionda B12 vitamini ilə zəngin məhsullar olmalıdır. "Food.News" yazır ki, aşağıdakı məhsullarla qidalanmaq beyinin sağlamlığını qoruyur. B12 vitamini ilə zəngin məhsulların siyahısına bu məhsullar daxildir:

submməhsullar(xüsusən qaraciyər, böyrək);

yüksəkkeyfiyyətli zülalla və beyinin struktur dəstəyini təmin edən omeqa-3 yağ turşusu tipi - DHA turşusu ilə zəngin sardina balığı;

yavan mal əti (gündə 150 qram yetərlidir);

kəpəkli dənli bitkilər - buğda, yulaf, darı;

beyinin sağlamlığı üçün dəyərli bəsləyici maddələr - zülal, fosfor və selenlə zəngin tuna balığı;

tərkibi selen mikroelementi ilə zəngin qida mayası;

təbii yoqurt, kəsmik və süd;

beyinin yaddaşla bağlı funksiyalarını yaxşılaşdıran D vitamini ilə zəngin yumurta.

# Məşhur türkiyəli aktyor sevgilisinə evlilik təklif etdi

Türkiyəli məşhur aktyor Berk Oktay bir müddətdir sevgili olduğu həmkarı Yıldız Çağrı Atiksoya evlilik təklif edib. "Hə" cavabı alan aktyor sevincini "Instagram" hesabında pərəstişkarları ilə bölüşüb.



Bir il əvvəl keçmiş arvadı Mərvə Şarapçıoğlu ilə səs-küylü boşanan 38 yaşlı aktyor paylaşımına "Birlikdə yaşlanaqmı? Dedim, "hə" dedi",- deyə qeyd edib.

# 11 evdən pul, qızıl-zinət və məişət əşyaları oğurlayan şəxs yaxalanıb



Bakıda oğurluqla məşğul olan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xəzər Rayon Polis İdarəsinin 1-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisindəki on bir evdən ümumilikdə 11 min 170 manat məbləğində pul, 470 ABŞ dolları, 19 min manat dəyərində qızıl-zinət və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Qala qəsəbə sakini, əvvəllər məhkum olunmuş S.Tağıyev saxlanılıb. Faktla bağlı araşdırmalar davam etdirilir.

# Soyğunçuluq edən şəxs tutulub



Xətai rayonunda polis əməkdaşları soyğunçuluq edən şəxsi yaxalayıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 30-da rayon ərazisində Bakı şəhər sakini S.Həsənzadəyə zor tətbiq edərək içərisində pul, bank kartları və avtomobil açarı olan çantasını soyğunçuluq yolu ilə almaqda şübhəli bilinən paytaxt sakini N.Qurbanov Xətai Rayon Polis İdarəsinin 36-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla əlaqədar təhqiqat aparılır.

**Baş redaktor:**

**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**